№41 (1036) 11-17 oktyabr 2018-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## Azərbaycan 2018-ci ildə də öz dinamik inkişafını təmin etmişdir və ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşamışdır



Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açmışdır. O, demişdir:

- 2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlindən qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla və vaxtında icra edilir. Azərbaycan 2018-ci ildə də öz dinamik inkişafını təmin etmişdir və ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşamışdır.

Bugünkü dünyada vəziyyəti nəzərə alsaq, deməliyik ki, bu gün sabitlik, təhlükəsizlik hər bir ölkə üçün əsas amillərdən biridir. Azərbaycanda isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik qorunur, möhkəmlənir. Sabitliyin, uğurlu inkişafımızın təməlində bizim düşünülmüş siyasətimiz dayanır, eyni zamanda, xalq tərəfindən bizim siyasətimizə göstərilən dəstək dayanır. Dünyada və xüsusilə yaşadığımız bölgədə vəziyyət gərgin olaraq qalır, yeni qarşıdurma, münaqişə ocaqları yaranır. Əvvəlki illərdə yaranmış gərgin vəziyyət, əfsuslar olsun ki, aradan qaldırılmır. Belə olan vəziyyətdə biz, əlbəttə ki, özümüzü mümkün olan xarici risklərdən daha da ciddi qorumalıyıq və qoruyuruq. Bir daha qeyd etmək istəyirəm, Azərbaycanda daxili risklər mənbəyi yoxdur və biz öz siyasətimizlə, görülən işlərlə özümüzü mümkün olan təhlükələrdən qoruyuruq və qoruyacağıq. Azərbaycan xalqının rahat həyatını təmin edirik və edəcəyik.

2018-ci ildə Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmlənib. Mənim həmkarlarımla həm ikitərəfli, həm çoxtərəfli formatlarda bir çox görüşlərim olub. Doqquz ay ərzində mən 12 xarici səfər etmişəm və 15 dövlət və hökumət başçısı Azərbaycana səfərlər etmişdir. Bu, onu göstərir ki, Azərbaycanın çox çevik və çoxşaxəli xarici siyasəti vardır. İkitərəfli formatda əldə edilmiş razılaşmalar icra edilir, Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır və bizim sözümüzə inanırlar. Çünki sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur.

Hesab edirəm ki, bu il qonşu ölkələrlə əlaqələrimiz yeni pilləyə qalxıbdır. Mənim qonşu ölkələrin dövlət, hökumət başçıları ilə çoxsaylı görüşlərim olub. Əldə edilmiş razılaşmalar həm ikitərəfli əlaqələrimizi möhkəmləndirir, eyni zamanda, regionda sabitliyin, təhlükəsizliyin, əməkdaşlığın inkişafına xidmət göstərir. Müsəlman ölkələri ilə bizim əlaqələrimiz həmişə olduğu kimi, diqqət mərkəzindədir. Bu, bizim xarici siyasətimizin prioritet məsələlərindən biridir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal və dəyərli üzvüdür və bütün beynəlxalq təşkilatlarda, beynəlxalq tədbirlərdə biz İslam həmrəyliyini göstəririk və bunu təbliğ edirik. Təsadüfi deyil ki, keçən il bizdə "İslam Həmrəyliyi İli" elan olunmuşdur. Azərbaycanda, İslam aləmində birliyin, həmrəyliyin möhkəmləndirilməsi işində bizim fəaliyyətimiz müsəlman dünyasında çox yüksək qiymətləndirilir. İslam Əməkdaşlıq Təşkilatı bizim fəaliyyətimizi yüksək qiymətləndirir. Biz bu istiqamətdə səylərimizi davam etdiririk və etdirəcəyik.

Dövlət başçısı qeyd etmişdir ki, bu il Azərbaycanın iştirakı ilə bir neçə önəmli beynəlxalq hadisə baş vermişdir. Onların arasında Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın qəbul edilməsini xüsusilə qeyd edən prezident demişdir ki, bu, tarixi sənəddir və bu sənəddə Azərbaycanın milli maraqları tam şəkildə öz əksini tapıb. Xəzəryanı beş ölkə uzun danışıqlardan sonra razılığa gəlibdir. Yəni, bu, onu göstərir ki, bütün ölkələrin maraqları bu Konvensiyada təmin edilib. Hesab edirəm ki, bu, bölgənin, regionun inkişafı, iqtisadi imkanlarının genişləndirilməsi üçün çox önəmli bir sənəddir, çox ciddi hüquqi sənəddir.

Prezident İlham Əliyev Azərbaycanda Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin böyük konfransından danışaraq demişdir ki, Azərbaycan bu təşkilatda uğurla fəaliyyət göstərir və gələn ildən başlayaraq bu təşkilata, dünyanın ən böyük təşkilatlarından biri olan Qoşulmama Hərəkatına sədrlik edəcəkdir. Bakıda Qoşulmama Hərəkatının Zirvə görüşü keçiriləcəkdir. Biz bu il Avropa İttifaqı ilə əlaqələrimizin inkişafı istiqamətində növbəti ciddi addım atdıq. Bu ilin yayında Avropa İttifaqı ilə Azərbaycan arasında "Tərəfdaşlıq prioritetləri" sənədi imzalanmışdır və hesab edirəm ki, bu, çox önəmli addımdır, önəmli sənəddir. Bu sənəddə bir çox önəmli məsələlər öz əksini tapır. O cümlədən bu sənəddə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı olan müddəalar həm ədalətlidir, həm də bizim mövqeyimizi və maraqlarımızı tam şəkildə ifadə edir. Bu sənəddə göstərilir ki, Azərbaycanın suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü Avropa İttifaqı tərəfindən dəstəklənir. Eyni zamanda, NATO-nun Zirvə görüşünün yekununda qəbul edilmiş bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək bir daha ifadə edilmişdir.

Münaqişə ilə bağlı danışıqların indiki mərhələsi ictimaiyyət üçün bəllidir. Ermənistan tərəfinin cəhdləri nəticə vermədi, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı danışıqların formatı dəyişməz olaraq qalır. Bu danışıqlar Ermənistan və Azərbaycan arasında aparılıb, aparılır və aparılmalıdır. İki ölkənin xarici işlər nazirlərinin iki görüşü bunu bir daha sübut edir. Son vaxtlar baş vermiş digər hadisələr onu göstərir ki, danışıqlar formatı dəyişməz olaraq qalır və bu münaqişə tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqların predmeti olmayıb, bu gün də deyil və heç vaxt olmayacaq. Ona görə biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq. Ümid edirəm ki, Ermənistanın yeni rəhbərliyi öz siyasətində konstruktivlik nümayiş etdirəcək və torpaqlarımız tezliklə işğalçılardan azad olunacaqdır.

Bununla yanaşı, əlbəttə ki, biz öz hərbi qüdrətimizi artırırıq və artıracağıq. Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və beynəlxalq reytinqlər də, həyat da bunu göstərir, bizim hərbi uğurlarımız da buna dəlalət edir...

Əlbəttə, bizim bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımız uğurla inkişaf etməlidir və bu istiqamətdə ardıcıl addımlar atılır. Əgər bizim güclü iqtisadi imkanlarımız olmasaydı, heç bir planımızı icra etmək mümkün olmazdı. Bizim iqtisadiyyatımız siyasi maraqlarımızı təmin edir. İqtisadi müstəqillik imkan verir ki, biz beynəlxalq müstəvidə də müstəqil siyasət aparaq. Əgər biz iqtisadi cəhətdən kimdənsə asılı olsaydıq, belə imkanlar məhdud ola bilərdi. Biz isə iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Hesab edirəm ki, bu, bizim tarixi nailiyyətimizdir.

Dövlət başçısı sözünə davam edərək demişdir:

-2018-ci ildə iqtisadi sahədə islahatların dərinləşməsi işində çox önəmli addımlar atılmışdır. Hesab edirəm, bu ilin doqquz ayının göstəriciləri deməyə əsas verir ki, biz istədiyimizə nail oluruq. İqtisadi göstəricilərə gəldikdə isə deməliyəm ki, bu ilin doqquz ayında bizim iqtisadiyyatımız, yəni ümumi daxili məhsul 0,8 faiz artmışdır. Qeyri-neft sektorunda artım isə 1 faizdir. Sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə 10,8 faiz artmışdır. Bu göstərici Azərbaycanda aparılan sənayeləşmə siyasətinin nəticəsidir.

Kənd təsərrüfatı doqquz ayda 4,3 faiz artıb. Hesab edirəm ki, bu da kifayət qədər yaxşı göstəricidir.

İnflyasiya cəmi 2,6 faizdir, əhalinin gəlirləri isə 9,5 faizdir. Yəni, gəlirlər inflyasiyanı üstələyir. İnflyasiyanın aşağı səviyyədə olması, il ərzində daha da düşməsi göstərir ki, bizim maliyyə vəziyyətimiz çox sabitdir və makroiqtisadi vəziyyət möhkəmdir.

Bu ilin doqquz ayında ölkə iqtisadiyyatına 9 milyard dollar sərmayə qoyulmuşdur. Sevindirici hal ondan ibarətdir ki, bu vəsaitin 5,6 milyard dolları qeyri-neft sektoruna qoyulub. Bu, iqtisadiyyatımızın bundan sonra da şaxələndirilməsinə xidmət göstərəcəkdir.

Daha sonra dövlət başçısı ölkənin valyuta ehtiyatlarının, xarici ticarət dövriyəsinin artımını qeyd etdi.

Ölkənin iqtisadi potensialından daha səmərəli istifadə etmək barədə fikirlərini açıqladı. Dövlətin birbaşa maliyyə dəstəyi ilə böyük, nəhəng müəssisələr yaradılır. Misal üçün, bu il polipropilen zavodunun açılışı, hesab edirəm ki, çox əlamətdar hadisədir. Bu zavodun açılışında İtaliya Prezidenti mənimlə birlikdə iştirak etmişdir. İlin sonuna qədər "SOCAR Polymer"in ikinci layihəsi – yüksəksıxlıqlı polietilen zavodu da istifadəyə veriləcək. Bu zavodlara qoyulan sərmayənin həcmi 800 milyon dollardan çoxdur. Əlbəttə, bizim qeyri-neft sənayemizin inkişafı üçün bu zavodların böyük əhəmiyyəti olacaq. Ölkəmizə böyük həcmdə valyuta gələcək. İlin sonuna qədər azot gübrəsi zavodu istifadəyə verilməlidir. Orada da sərmayələr yüz milyonlarla dollar həcmindədir.

Yaxın gələcəkdə Azərbaycanın Türkiyədəki "Star" neftayırma zavodu istifadəyə veriləcək. Biz bu zavoda çox böyük sərmayə - 6 milyard dollardan çox vəsait qoymuşuq. Biz oradan hər il yüz milyonlarla dollar gəlir götürəcəyik. Yəni, həm ölkə daxilində, həm xaricdə qoyulan sərmayələr gələcəkdə bizə böyük xeyir gətirəcək və ölkəmizin dayanıqlı inkişafını təmin edəcək. Bu il bir çox sənaye müəssisələri açılmışdır və bu proses davam etdiriləcək.

2018-ci il bizim enerji siyasətimizin inkişafı üçün önəmli il olmuşdur. Bu ilin may ayında biz Bakıda Cənub Qaz Dəhlizinin rəsmi açılışını qeyd etdik. Bu, tarixi hadisədir. Ondan bir ay sonra Türkiyədə TANAP layihəsinin açılışını etdik və "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra edilir. Bütün bu dörd layihənin hamısında çox gözəl nəticələr var. Bu il biz qaz hasilatımızı artıracağıq, artıq "Şahdəniz-2"-dən qaz gəlir. Gələn il, ondan sonrakı illərdə daha da artacaq. Yəni, biz tam hədəfə çatmaq üçün bütün işləri görürük və mənə verilən son məlumatlara görə, Cənub Qaz Dəhlizinin son hissəsi olan TAP layihəsinin icrası ilə bağlı da heç bir problem yoxdur.Cənub Qaz Dəhlizinin uğurla başa çatması bizim üçün yeni imkanlar, yeni üfüqlər açacaq...

Əlbəttə ki, ilin doqquz ayının yekunları haqqında danışarkən Ələt Beynəlxalq Dəniz Ticarət Limanını qeyd etməmək mümkün deyil.

(ardı 2-ci səhifədə)



Bu da tarixi layihədir, Xəzər dənizinin ən böyük limanıdır. Liman may ayında istifadəyə verildi. Beləliklə, Şərq-Qərb nəqliyyat dəhlizinin uğurlu fəaliyyəti üçün çox önəmli infrastruktur layihəsi həyata keçirildi. Bundan sonra biz əlbəttə ki, öz tranzit imkanlarımızı artıracağıq. Bu gün biz nəinki Şərq-Qərb, eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin fəal iştirakçısıyıq. Bu dəhliz vasitəsilə göndərilən yüklərin həcmi artır.

Regionda baş verən hadisələr, bizim təşəbbüsümüzlə icra edilən nəhəng enerji, nəqliyyat layihələri, digər sahələrdə apardığımız işlər siyasi çəkimizi böyük dərəcədə artırıb. Bu gün Azərbaycan çox dəyərli, böyük hörmətə, yüksək beynəlxalq nüfuza malik olan bir ölkədir. Təkcə bizim yaratdığımız imkanlara görə yox, eyni zamanda, bəlkə də, ilk növbədə, ona görə ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Biz prinsipial siyasət aparırıq. Bütün prinsipial məsələlərlə bağlı öz mövqeyimizi ortaya qoyuruq, ölkəmizin milli maraqlarını layiqincə yerinə yetiririk və bundan sonra da bu yolla gedəcəyik.

* * * *

**Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqi**

- İlin sonuna üç aydan az vaxt qalır. Əminəm ki, biz ilin sonuna qədər nəzərdə tutduğumuz bütün işləri görəcəyik, o cümlədən Dövlət İnvestisiya Proqramı tam icra ediləcəkdir. Mənə bu yaxınlarda məruzə edildi, Dövlət İnvestisiya Proqramının icrası ilə bağlı vəziyyət yaxşıdır. Cədvəl üzrə nəzərdə tutulmuş bütün layihələr icra edilir.

Bir neçə ay bundan əvvəl biz büdcəyə dəyişiklik etdik. Çünki əlavə vəsait daxil edildi. Hesab etdik ki, bu il görülə biləcək işlərin icrası üçün əlavə vəsait ayıraq, o cümlədən sosial məsələlərin həlli üçün. Dürüstləşmə edildi və büdcəmizin həcmi artırıldı. Bu, özlüyündə bir göstəricidir, onu göstərir ki, bizim maliyyə vəziyyətimiz daha da yaxşılaşır. Elə imkanlar yaranıb ki, biz il ərzində büdcəyə dəyişiklik edərək büdcəmizin həcmini artıra bilərik.

Gələn ilin büdcəsi ilə bağlı ilkin məruzələr edildi. Gələn ilin büdcəsi həm investisiyayönümlü, həm də sosialyönümlü olacaqdır. Bütün sosial layihələr icra ediləcək. Eyni zamanda, dövlət kapital qoyuluşu üçün kifayət qədər vəsait də nəzərdə tutulur. Əsas məsələ ondan ibarətdir ki, biz bu vəsaitdən səmərəli şəkildə istifadə edək, ölkə qarşısında duran əsas məsələlərin həllini təmin edək, prioritetləri düzgün seçək. Dövlət İnvestisiya Proqramımız iqtisadiyyatın real sektoruna xidmət göstərməlidir, eyni zamanda, bu günə qədər öz həllini tapmayan infrastruktur layihələrinin icrasına da istiqamətləndirilməlidir.

Bu il iqtisadi sahədə köklü islahatlar davam etdirilir. Xüsusilə, vergi və gömrük sistemində aparılan islahatlar böyük dəyişikliyə, müsbətə doğru dəyişikliklərə səbəb olur. İslahatlar davam etdirilməlidir. Bu gün sahibkarları, ictimaiyyəti narahat edən vergi və gömrük sahəsində işlərlə, məsələlərlə bağlı bütün lazımi addımlar atılmalıdır ki, bu xoşagəlməz hallara son qoyulsun.

Gömrük orqanları bu il 800 milyon manatdan çox əlavə vəsait toplamışlar. Mən bunu yüksək qiymətləndirirəm. Əminəm ki, ilin sonuna qədər bu məbləğ daha da artacaq. Bu, onu göstərir ki, ilk növbədə, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir, idxal artır və idxalın artımı da sənayenin inkişafı ilə bağlıdır. Nəzərə alsaq ki, ixrac idxalı böyük dərəcədə üstələyir, biz idxalın artımına müsbət hal kimi yanaşmalıyıq. Bizim xarici ticarətimizin müsbət saldosu 9 ayda 6,5 milyard dollar təşkil edir. Bilirəm, bəziləri hesab edirlər ki, idxalın artımı müəyyən problemlər yarada bilər. Təbii ki, bu, belədir. Amma o təqdirdə ki, ixracımız artmasın. İxracımız idxaldan daha yüksək templərlə artır. Əgər altı ay ərzində 6,5 milyard dollar müsbət saldomuz varsa, deməli, ilin sonuna qədər bu, daha da artacaq. İdxalın artımı sənayenin inkişafı ilə bilavasitə bağlı olan məsələdir, insanların rifah halının yaxşılaşması ilə bağlıdır. Gömrük rüsumlarının artırılmasının səbəblərindən biri də məhz idxalın artımıdır. Ancaq, eyni zamanda, deməliyəm ki, digər amillər də müsbət rol oynayır. O cümlədən struktur islahatları, şəffaflıq, korrupsiyaya, rüşvətxorluğa qarşı ciddi mübarizə gömrük orqanlarında 800 milyon manatdan çox əlavə vəsaitin toplanmasına səbəb olubdur.

Vergi orqanlarında da ciddi struktur islahatları aparılır. Bu barədə nazir məlumat verdi. Mən qeyd etməliyəm ki, bizim əsas vəzifəmiz kölgə iqtisadiyyatının aradan qaldırılmasıdır. Düzdür, heç bir ölkədə buna 100 faiz nail olunmayıb, hər bir ölkədə kölgə iqtisadiyyatı var, amma bunun dərəcəsi var. Azərbaycanda kölgə iqtisadiyyatının kəskin şəkildə azalması üçün çox ciddi addımlar atılır. Vergidən yayınma halları əvvəlki illərdə kütləvi xarakter daşıyırdı. Bu, əlbəttə, imkan vermirdi ki, biz öz potensialımızı tam gücü ilə işə salaq. Bu gün bu hallara son qoyulur. Bütün dövlət orqanları vergi orqanlarına kömək göstərməlidirlər. Müvafiq göstərişlər verilir. Vergidən yayınmaya son qoyulmalıdır. Bu, həm iri, həm kiçik sahibkarlara aiddir. Sahibkarlar da bilməlidirlər ki, əgər onlar sahibkarlar kimi öz fəaliyyətini davam etdirmək istəyirlərsə, vergiləri tam ödəməlidirlər. Heç kimə heç bir güzəşt edilmir və edilməyəcək. Bilirəm ki, bəzi sahibkarlar bəzi dövlət məmurlarına arxalanırlar, o dövr artıq keçibdir. Heç kimə arxalanmasınlar. Əgər hansısa bir dövlət məmuru sahibkarlara xüsusi şərait yaratmaq üçün qanunsuz əməllər edəcəksə, çox ciddi şəkildə cəzalandırılacaq. Bütün müvafiq qurumlara göstəriş verildi, ilk növbədə, Vergilər Nazirliyinə. Bu nazirlik heç nəyə baxmadan, dövlət maraqlarını rəhbər tutaraq öz siyasətini aparmalıdır. Bütün dövlət qurumları, o cümlədən sahibkarlar bu sahədə öz dəstəyini verməlidirlər. Dəstək verməyən isə cəzalandırılacaq.

Uçot sisteminin yaradılması prioritet məsələlərdən biridir. Mən əvvəlki illərdə də bu məsələni dəfələrlə qoymuşdum. Ancaq əfsuslar olsun ki, biz müəyyən səbəblərə görə uçot sisteminin yaradılmasına çata bilməmişik. İndi bu sistem yaradılır. Qeyri-rəsmi məşğulluğun aradan qaldırılması üçün də praktiki addımlar atılır. Hesab edirəm ki, biz doqquz ayda vergilərin bu səviyyədə toplanmasına, - nəzərə alsaq ki, əvvəlki illərdə bu sahədə çox böyük pozuntular olub, - vergi orqanlarının çox fəal və məqsədyönlü fəaliyyəti nəticəsində nail ola bilmişik.

Şəffaflıq vergi və gömrük orqanlarında tam təmin edilməlidir, struktur islahatları davam etdirilməlidir. Korrupsiyaya, rüşvətxorluğa qarşı ən ciddi mübarizə aparılır və aparılacaqdır. Bu kompleks tədbirlər biznes mühitinin yaxşılaşdırılmasına öz dəstəyini verəcək. Sağlam rəqabətin təmin edilməsi üçün indi şərait yaradılır. İnhisarçılığa qarşı mübarizə çox ciddi xarakter alıbdır. Bir daha demək istəyirəm ki, bütün aidiyyəti qurumlar, özəl və dövlət şirkətləri mənim sözlərimdən nəticə çıxarsınlar. Vergi və gömrük sistemləri Azərbaycanda şəffaflığın nümunəsi olmalıdır. Mən göstəriş vermişəm ki, bu sahədə Avropanın aparıcı dövlətlərinin təcrübəsi Azərbaycanda tam tətbiq edilməlidir. Bu istiqamətdə işlər gedir.

İqtisadiyyatın rəqabətliliyinin artırılması üçün biz bundan sonra da fəal işləyəcəyik. Bildiyiniz kimi, Azərbaycanın bu sahədəki reytinqləri ən yüksək səviyyədədir. Mən bunu dəfələrlə demişəm və bir daha qürur hissi ilə deyə bilərəm ki, Davos Forumunun hesablamalarına əsasən biz iqtisadi rəqabətliliyə görə dünyada 35-ci yerdəyik. Ancaq onu da bilməliyik ki, biz daha da qabağa getməliyik. Ona görə Davos Forumunun hesabatı tam təhlil edilməlidir və təhlil edilir. Bəzi müddəalar var ki, biz orada geridə qalmışıq. Biz onlara mütləq baxmalıyıq və iqtisadiyyatın rəqabətliliyini daha da artırmalıyıq.

Qeyri-neft sektorunun inkişafı üçün çox böyük işlər görülür, addımlar atılır. Xüsusilə son dövrdə qəbul edilmiş qərarlar çox böyük canlanmaya gətirib çıxarıb. Təkcə onu demək kifayətdir ki, investisiya təşviqi sisteminin tətbiqindən sonra 300-dən çox investisiya təşviqi sənədi verilmişdir. Bu layihələrin icrası nəticəsində 20 min iş yeri yaradılıb. İnvestisiya təşviqi mexanizminin işə düşməsindən sonra icra edilən və nəzərdə tutulan layihələrin ümumi investisiya həcmi 2,7 milyard manatdır. Əgər biz bu sistemi tətbiq etməsəydik, heç kim gəlib bu vəsaiti Azərbaycana qoymazdı. Baxın, bir ciddi islahatın aparılması ilə təxminən 3 milyard manat investisiya cəlb etmişik, 20 min insan üçün isə iş yeri yaratmışıq.

Mən giriş sözümdə sənaye istehsalı ilə bağlı bəzi məsələləri qeyd etdim. Xüsusilə bu yaxınlarda orbitə çıxarılmış "Azerspace-2" peykini qeyd etmək istərdim. Bu, böyük nailiyyətdir. Bu, kosmik dövlət kimi Azərbaycanın mövqelərini daha da möhkəmləndirir...

Bakıda neftayırma zavodunun yenidən qurulması, modernləşdirilməsi prosesi gedir. Bu da çox önəmli sənaye layihəsidir. Bu, bizə imkan verəcək ki, daha keyfiyyətli neft məhsulları istehsal edək. Yenidənqurma başa çatandan sonra Azərbaycanda istehsal olunacaq benzin "Avro-5" standartına cavab verəcək. Bu da ölkəmizin ekoloji vəziyyətinə müsbət təsir göstərəcəkdir. Eyni zamanda, bu zavodun yenidən qurulması, modernləşdirilməsi bizə böyük iqtisadi səmərə verəcək.

Neftçala Sənaye Parkında "Xəzər" adlı avtomobillər artıq istehsal olunur. Bu da çox gözəl hadisədir. Mənə verilən məlumata görə, 300-ə yaxın avtomobil istehsal olunub. Onların böyük hissəsi, 200-dən çoxu artıq satılıb. Bu zavodun illik istehsal gücü 10 min ədəd avtomaşındır. Əgər daxili tələbat və ixrac tələbatı olarsa, zavod bu səviyyəyə qalxa bilər.

Sənaye parkları ilə bağlı qeyd etməliyəm ki, Sumqayıt Kimya Sənaye Parkında yeni müəssisələr yaradılır. Orada da 2 milyard dollardan çox sərmayə nəzərdə tutulur. Gələn il bir neçə önəmli, vacib müəssisə açılacaqdır.

Mingəçevir Sənaye Parkında 2 böyük iplik fabriki işləyir. Orada 750 insan işlə təmin olunub. Orada işləyənlər əsasən qadınlardır. Bu iplik fabriklərinə 80 milyon dollar sərmayə qoyulub. Bu, bizim ixrac imkanlarımızı genişləndirir və biz mahlıcı orada ipə çevirərək artıq daha da valyutatutumlu məhsul ixrac edirik. Bu prosesin davamı olmalıdır ki, biz artıq hazır məhsula da nail ola bilək.

Bu il mənim iştirakımla Masallı Sənaye Parkının açılışı olmuşdur. Hacıqabul və Sabirabad rayonlarında sənaye məhəllələrinin yaradılması prosesi davam edir.

Sahibkarlara bundan sonra da dövlət öz dəstəyini göstərəcək. Bu günə qədər Sahibkarlığın İnkişafı Fonduna 2,2 milyard manat vəsait ayrılmışdır. Bu proses davam etdirilir. Mənə verilən məlumata görə, bu il də kreditləşmə uğurla gedir, tələbat çoxdur. Bu, çox sevindirici haldır. Əminəm ki, Sahibkarlığın İnkişafı Fondunun fəaliyyəti nəticəsində gələn il də ölkəmizdə minlərlə iş yeri yaradılacaq.

Mən giriş sözümdə qeyd etdim ki, kənd təsərrüfatının inkişafı daim diqqət mərkəzindədir. 4,3 faiz artım müsbət haldır. Doqquz ayda 5700 kənd təsərrüfatı texnikası alınıbdır. Texnika ilə təminat böyük dərəcədə yaxşılaşıb. Kənd Təsərrüfatı Nazirliyi indi çox ciddi islahatlar aparır. Hesab edirəm ki, bu islahatlar nəticəsində kənd təsərrüfatının uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcək, düşünülmüş, sistemli qaydada, torpaqların münbitliyini nəzərə alaraq, əkin sahələrinin səmərəliliyini təmin edərək və ilk növbədə, məhsuldarlığı artıraraq biz mövcud olan torpaq fondumuzdan istifadə edərək istehsalı böyük dərəcədə artıra bilərik. 192 min hektar sahədə 45 aqroparkın yaradılması nəzərdə tutulur. Onların 4-ü mənim iştirakımla açılıb. Verilən məlumata görə, ilin sonuna qədər açılan aqroparkların sayı 13-ə çatacaqdır.

İri fermer təsərrüfatlarında, taxılçılıqda nəticələr çox yaxşıdır. Təqribən hektardan orta hesabla 50 sentner məhsul götürülür. İri fermer təsərrüfatlarında tətbiq olunan texnoloji prosesi də biz bütün təsərrüfatlara yaymalıyıq. Belə olan halda, biz mövcud əkin sahəsindən daha çox məhsul yığa bilərik. Bu il taxılçılıqda artım olub, 3 milyon ton taxıl tədarük edilibdir. Buğda yığımında məhsuldarlıq 30 sentnerə çatıb. Pis nəticə deyil. Amma hesab edirəm ki, daha da artmalıdır və artacaq.

Biz pambıqçılığı daha səmərəli şəkildə inkişaf etdirməliyik. Məhsuldarlıq artmalıdır. Keçən ilin məhsuldarlığı bizi heç cür qane edə bilməzdi. Bunun bir çox səbəbləri vardır və göstəriş verilmişdir, səbəblər araşdırılsın ki, biz pambıqçılığı məhsuldarlıq hesabına inkişaf etdirək.

Bu il təqribən 250-260 min ton pambığın tədarükü nəzərdə tutulur. Yəni, artım dinamikası çox müsbətdir. Məhsuldarlıq hektardan minimum 20 sentner olmalıdır. Ancaq indi biz bilirik ki, müasir texnologiyaların tətbiq olunduğu, düzgün aqrotexniki xidmət göstərildiyi bir vaxtda məhsuldarlıq daha da artır.

Üzümçülüklə bağlı işlər yaxşı gedir. Azərbaycanda üzümçülüyün çox böyük ənənələri vardır. Biz bu ənənələri bərpa edirik və eyni zamanda, bu gün dünyanın ən qabaqcıl texnologiyalarını cəlb edirik. Təsadüfi deyil ki, ixracımız artır. İndi Azərbaycan şərab evlərini açmağa başlayıb. Artıq bir neçə ölkədə şərab evləri fəaliyyətə başlayır. Bizim şərabımıza böyük maraq var. Biz şərabçılıqla bağlı olan bütün məsələləri çox ciddi təhlil etmişik. Bir çox boşluqlar var idi - həm istehsalatda, həm uçotda, həm də aksiz markalarının yapışdırılmasında. Sanki kimsə bu boşluqları qəsdən edirdi ki, orada qeyri-şəffaf vəziyyət yaradılsın. Mən buna başqa bir izahat verə bilmərəm. Çünki o qədər çətin olmayan, yəni, böyük intellektual potensial tələb etməyən məsələlər var və elə bil onlar qəsdən edilib qatmaqarışıq salınsın ki, burada həm vergilərdən yayınsınlar, həm də qanunsuz istehsalla məşğul olsunlar. Şərab əvəzinə araq istehsal olunurdu. Məsələ çox ciddi araşdırılır. Bu sahədə tam şəffaflıq təmin edilməlidir. Şərab zavodlarının fəaliyyəti üçün bütün şərait yaradılıb, təki onlar təmiz işləsinlər. Əgər yenə məhsulları gizlədəcəklərsə, uçota düşməyən məhsulu satacaqlarsa, onlar çox ciddi cəzalandırılacaqlar, onu bilsinlər. Burada tam şəffaflıq olmalıdır. Bu, çox gəlirli sahədir. Sadəcə olaraq, gərək sahibkarlar öz tamahlarını cilovlaya bilsinlər.

Xüsusilə nəzərə alınmalıdır ki, dövlət öz dəstəyini göstərir. İxrac missiyalarını dövlət təşkil edir, şərab evlərinin yaradılmasını dövlət təmin edir, ixracla bağlı danışıqları dövlət aparır. Mən şəxsən bir neçə həmkarımla Azərbaycanın qeyri-neft ixracının artırılması ilə bağlı danışıqlar aparmışam və biz nəticəyə gəlmişik. Bütün bunları biz edirik, sahibkarlar da öz məsuliyyətini dərk etməlidirlər.

Mən regional inkişafla bağlı konfransların birində bəzi kənd təsərrüfatı məhsullarının istehsalını, istehlakını sadalayarkən özüm də o arayışı görəndə təəccüb etdim ki, biz xaricdən zeytun idxal edirik. O zeytun ki, bizdə, Abşeron yarımadasında hər tində bitə bilir. Ona görə, çox ciddi göstəriş verildi ki, yeni zeytun bağları salınsın, onların suvarılması təmin edilsin və Azərbaycanda zeytun yağı istehsalı təşkil olunsun. Bu günə qədər olan istehsal bizi qane edə bilməzdi. Mənim bu istiqamətdə göstərişlərim yerinə yetirilir və son bir neçə il ərzində yeni zeytun bağları salınıb. Yüzlərlə, bəlkə də minlərlə hektar sahələrdə yeni zeytun bağları salınır. Bizim istehsalımız artır, zeytun yağı istehsalı artır, ixrac etməyə başlamışıq. Özü də çox keyfiyyətli zeytun yağıdır. Biz zeytunçuluğun inkişafı, zeytun yağının ixracı ilə bağlı dünya miqyasında öz dəyərli yerimizi tuturuq.

Mənim iradlarımı tütünçülüyə də aid etmək olar. Bu sahə də, demək olar ki, batıb gedirdi. Heç bir dövlət dəstəyi göstərilmirdi. Ancaq biz bu məsələ ilə məşğul olmağa, qurutma kameralarının yaradılmasına, tütün istehsalının təşviqi üçün addımlar atmağa başlayanda dərhal gözəl nəticələri görürük. Biz tütün istehsal edə-edə xaricdən siqaret alırıq. Elə ölkələr var ki, orada tütün, ümumiyyətlə, bitmir, onlar bizə siqaret ixrac edirlər. Bu, absurddur, dözülməzdir. Sadəcə, ona görə ki, bu məsələ ilə məşğul olmurdular və bu sahəni başlı-başına buraxmışdılar. Bəlkə hesab edirdilər ki, belə də olmalıdır. Amma biz indi vəziyyəti tam dəyişdiririk. Azərbaycanda yeni siqaret fabrikləri yaradılır. Biz özümüzü siqaretlə böyük dərəcədə təmin edəcəyik, ixrac potensialı yaradılır. Tütünçülükdə vəziyyət necədir? Əgər 2015-ci ildə 3400 ton quru tütün istehsal olunubsa, bu il 6 min ton quru tütün istehsalı nəzərdə tutulur, təxminən iki dəfə çox. Doqquz min insan tütünçülükdə işləyir, yaxşı pul qazanır. Bax, görülən işlərin nəticəsi budur.

Tərəvəzçilik ənənəvi ixrac sektorumuzdur. Ancaq biz burada da işlərimizi təkmilləşdirməliyik. Deməliyəm ki, Rusiyaya pomidor ixracında Azərbaycan birinci yerdədir. Biz çalışmalıyıq ki, bu birinciliyi saxlayaq. Onu da qeyd etməliyəm ki, Azərbaycanda bir çox istixanalar salınır. Son məlumata görə, təqribən 400 hektar sahədə yeni istixanalar salınır, onların da böyük əksəriyyəti pomidor istehsalına hesablanıb. Ona görə, baxmalıyıq ki, nə qədər əlavə bazar bizim istehsalımızı həzm edə bilər. Eyni zamanda, biz gərək pomidorun emalını təmin edək ki, məhsulumuz xaricə daha da böyük qiymətə satıla bilsin.

Meyvəçilik sahəsində də müsbət irəliləyiş var. Qeyd etməliyəm ki, bizdə xurma ixracı 2 dəfə artıb, narçılıq inkişaf edir. Mən fındıqçılıqla bağlı xüsusi müşavirə də keçirmişdim və nəticələr göz qabağındadır. 2016-cı ildə fındıq bağlarının sahəsi təqribən 30-35 min hektar idi. Bu gün yeni bağların salınması hesabına bu rəqəm 70 min hektara çatıb və qarşıya hədəf qoyulub ki, 2020-ci ildə 83 min hektara çatacaq. Bu, məşğulluqdur, gəlirdir, valyutadır. Bu, ölkəmizə bəlkə də yüz milyonlarla dollar gətirəcək. Ölkəmizə deyəndə, fermerlərə, onlar da onu xərcləyəcəklər, onlar da öz güzəranını yaxşılaşdıracaqlar, daha yaxşı yaşayacaqlar və bizim tədiyə balansımıza da bunun müsbət təsiri olacaq. Hazırda fındıqçılıqda 17 min insan işləyir, yaxşı gəlir götürür.

Baramaçılıqda, ümumiyyətlə, vəziyyət, bəlkə ən acınacaqlı idi. Biz, demək olar ki, bu sahəni tamamilə itirmişdik. 2015-ci ildə məlumat verildi ki, cəmi 236 kiloqram barama istehsal olunub və baramaçılar heç bilmirdilər ki, onu hara versinlər. Bütün bir zəncir sistemi yaratdıq - həm stimullaşdırma, həm maarifləndirmə, həm tinglərin gətirilməsi, indi Qaxda barama mərkəzinin yaradılması. Bütün bu işlər gözəl nəticə verir və bu il 500 tondan çox barama tədarük edilib. Əgər keçən il 10 min insan bu işlərə cəlb olunubsa, 2016-cı ildə 3 min, bu il 22 min insan. Beləliklə, bu insanlar 30-40 günə o qədər də böyük əziyyət çəkmədən yaxşı pul qazanır və Şəki ipək kombinatı da daha böyük həcmlə işləyir. Orada da yüzlərlə iş yeri yaradılıb. Əlbəttə ki, biz Şəki ipək kombinatının modernləşdirilməsi ilə məşğuluq. Həm iş yerlərinin artırılması, həm ixrac imkanlarının genişləndirilməsi istiqamətində işlər aparılacaq.

Mən kənd təsərrüfatı ilə bağlı yekun olaraq demək istəyirəm ki, ilk növbədə biz daxili tələbatı təmin etməliyik, məhsuldarlığı artırmalıyıq, elmi yanaşmanı tətbiq etməliyik və ixrac imkanlarımızı genişləndirməliyik.

Bu sahədə kiçik sahibkarlıq da öz rolunu oynayır və oynayacaq. İndi "ABAD" - "Ailə Biznesinə Asan Dəstək" mərkəzləri yaradılır. Mən bunu alqışlayıram. Bu, daha da geniş vüsət almalıdır. Müşavirələrin birində mən özəl sektora müraciət etmişdim. Demişdim ki, onlar da bu təşəbbüsü dəstəkləsinlər və özəl şirkətlər "ABAD" mərkəzləri ilə müqavilələr bağlayıb sponsorluq edirlər. Bir neçə milyon manat dəyərində sponsorluq ki, fermerə, ailə təsərrüfatlarına dəstək olsunlar. Əlbəttə ki, kənd təsərrüfatının inkişafı, o cümlədən özünüməşğulluq sisteminin tətbiqi ilə də bağlı olacaq. Bu sistem, əlbəttə ki, təkcə kənd təsərrüfatı sahəsini əhatə etməyəcək. Burada da hər il 6 min, 7 min iş yeri yaradılmalıdır. Özünüməşğulluq proqramı işsizliyin, xüsusilə bölgələrdə işsizliyin, yoxsulluğun aradan qaldırılması üçün çox önəmli bir vasitə, alət olacaq. Eyni zamanda, bu gün dövlətdən sosial yardım alan ailələr dövlət tərəfindən, dövlət dəstəyi ilə onlara lazımi vəsait veriləndən sonra öz həyatlarını özləri quracaqlar və öz maliyyə imkanlarını böyük dərəcədə artırmış olacaqlar.

"ASAN xidmət" mərkəzlərinin inşası davam etdirilir. İlin sonuna qədər iki şəhərdə - İmişli və Şəkidə yeni mərkəzlər açılacaq və gələn il 4-5 mərkəzin açılması nəzərdə tutulub. Son məlumata görə, "ASAN xidmət" mərkəzlərinə 24 milyon müraciət olmuşdur.

Demək olar ki, müraciət edənlərin təxminən 100 faizi göstərilən xidmətlərdən razıdırlar və məmnundurlar.

Sosial sahədə ciddi islahatlar aparılır. Nazirliyin yeni rəhbərliyinə mənim tərəfindən çox ciddi tapşırıqlar verildi ki, sosial ədaləti pozanlara qarşı çox ciddi tədbirlər görülsün. Bu sahədə rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə çox ciddi aparılmalıdır və hazırda aparılır, şəffaflıq təmin edilir, bu sahədə yol verilmiş pozuntular aradan qaldırılır. İnzibati və institusional yollarla bu sahədə də ən müasir elektron texnologiyalar tətbiq olunmalıdır ki, şəffaflıq və ədalət tam təmin edilsin. Mənə görülən işlərlə bağlı müntəzəm olaraq məlumat verilir. Sosial sahədə biz "ASAN xidmət"in analoqunu yaradırıq - Dayanıqlı və Operativ Sosial Təminat mərkəzləri, bunun adı da yaxşıdır - DOST mərkəzləri, mənası da yaxşıdır. Hesab edirəm ki, bu sahədə vətəndaşlar yaxın gələcəkdə müsbət dəyişiklikləri görəcəklər, artıq görürlər. İndi yerlərdən məlumat gəlir, ancaq biz hələ islahatların birinci mərhələsindəyik.

Eyni zamanda, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün evlərin tikintisi daha da sürətlə gedəcək. Mən bu il bir evin açılışında iştirak edərkən bildirdim ki, bu sahədə işləri sürətləndirmək üçün əlavə vəsait veriləcək. Ondan sonra bu il bu məqsədlər üçün Prezidentin ehtiyat fondundan 20 milyon manat ayrıldı ki, şəhid ailələrinə, müharibə veteranlarına, əlillərinə yüzlərlə mənzil və maşın verilsin.

Məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Deyə bilərəm ki, artıq 100-dən çox şəhərcik salınıb. Bu il əlamətdar hadisə baş verib, ilk dəfə olaraq özəl sektor məcburi köçkünlər üçün böyük şəhərcik salıb, Qobu qəsəbəsində mindən çox mənzil özəl sektor tərəfindən inşa edilib və köçkünlərə təqdim olunub. Mən bunu çox alqışlayıram. Hesab edirəm ki, bu proses Azərbaycanda vüsət almalıdır. Bizim iri şirkətlərimiz, böyük maliyyə imkanlarına malik olan şirkətlər var. Onlar gərək sosial məsuliyyətlərini göstərsinlər.

Bu il Sumqayıt şəhərində, Kürdəxanı, Mehdiabad, Ramana, Masazır qəsəbələrində, Abşeron, Tərtər, Qaradağ rayonlarında məcburi köçkünlər üçün binalar, evlər tikilir və onların sərəncamına verilir.

Doqquz ayda 2900 məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin olunub. İlin sonuna qədər əlavə 2800 ailə evlərlə, mənzillərlə təmin ediləcək. Beləliklə, bu il 5700 ailə - təxminən 25 min insan evlərlə, mənzillərlə təmin olunacaq. Bax, bu, görülən işlərin nəticəsidir. Belə olan halda, ilin sonuna qədər evlərlə, mənzillərlə təmin edilmiş məcburi köçkünlərin sayı 300 minə çatacaq.

Bundan sonra da, gələn il də bu məqsədlər üçün kifayət qədər vəsait nəzərdə tutulacaq. Amma, eyni zamanda, biz bu sahədə də çox ciddi islahatlar aparmalıyıq, uçot aparılmalıdır, şəffaflıq təmin edilməlidir. Çünki əfsuslar olsun ki, bu gün belə deyil. Bəzi hallarda köçkün olmayan vətəndaş gedib yalandan öz adını yazdırır, sonra dövlətdən mənzil alır.

**(ardı 4-cü səhifədə)**

# Azərbaycanın "Milan Ekspo 2015" sərgisindəki mili pavilyonu Dənizkənarı Milli Parkda yenidən qurulub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva pavilyonla tanış olublar.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov yenidən qurulan pavilyondakı şərait barədə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verdi. Qeyd edək ki, bu bina Dənizkənarı Milli Parkın ərazisində bütün fəsillərdə daimi istifadəyə uyğunlaşdırılıb. Burada Azərbaycan mətbəxini, musiqisini və mədəniyyətini təbliğ edən instalyasiyalar quraşdırılıb, müxtəlif iaşə xidməti göstərmək üçün binada müvafiq şərait yaradılıb, terras qurulub.

Heydər Əliyev Fondunun və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycan ilk dəfə "Milan Ekspo 2015" Ümumdünya sərgisində milli pavilyonla iştirak edib. Bu layihə Azərbaycanın tarixinin və mədəni irsinin, ölkənin zəngin ekoloji, enerji potensialı və nadir biomüxtəlifliyinin beynəlxalq miqyasda tanıdılması istiqamətində böyük rol oynayıb. 2015-ci il mayın 31-dən oktyabrın 31-dək davam edən "Milan Ekspo 2015" sərgisini 23 milyondan çox insan ziyarət edib. Bu müddətdə Azərbaycanın milli pavilyonunda 3 milyon 250 mindən çox izləyici olub. "Azərbaycan: biomüxtəlifliyin xəzinəsi" adlandırılan dördmərtəbəli milli pavilyon Milanda 1800 kvadratmetr ərazidə təşkil olunmuşdur. Xarici mətbuat, o cümlədən İtaliyanın aparıcı kütləvi informasiya vasitələri milli pavilyonumuzu "Milan Ekspo" sərgisinin incisi adlandırıblar. Sərgi müddətində pavilyonun dördüncü mərtəbəsində restoran fəaliyyət göstərib. Burada Azərbaycan milli mətbəxinin nümunələri və konsert proqramları təqdim olunub. Pavilyondakı monitorlarda Azərbaycanın musiqi və kinematoqrafiya incilərinə, adət və ənənələrinə, incəsənətinə dair müxtəlif materiallar nümayiş etdirilib. Sərginin keçirildiyi müddətdə Azərbaycanın milli pavilyonu "Milan Ekspo 2015" Təşkilat Komitəsi tərəfindən "Dizayn və materiallar" nominasiyası üzrə qalib elan olunub. Qeyd edək ki, "Milan Ekspo 2015" Ümumdünya sərgisindən sonra sökülərək, Dənizkənarı Milli Parkın ərazisində yenidən qurulan milli pavilyonumuzun inzibati binası 4 mərtəbədən ibarətdir və 6 min kvadratmetr ərazisi var.

# İKT sektoru üzrə gəlirlərin artım tempi 7,7 faiz təşkil edib

Bunu nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışı zamanı deyib.



R.Quluzadə qeyd edib ki, nazirliyin əsas fəaliyyət istiqamətlərindən olan telekommunikasiya sahəsində yeni texnologiyaların tətbiqi, xidmət şəbəkəsinin müasir standartlara uyğunlaşdırılması və yeni xidmətlərin göstərilməsi üzrə müvafiq işlər aparılır. Bu istiqamətdə regionların telekommunikasiya şəbəkəsində yeni texnologiyaların tətbiqi üzrə Şimal, Qərb və Cənub istiqamətlərində irimiqyaslı layihənin icrasına başlanılıb. Layihə çərçivəsində quraşdırılacaq yeni stansiyalar bir milyon istifadəçini müasir telekommunikasiya xidmətləri ilə təmin edəcək.

Nazir bildirib ki, Bakı şəhərində bir xətt üzərindən üç xidmət - telefon, internet və televiziya xidmətlərinin göstərilməsini təmin edən GPON və yeni simsiz rabitə texnologiyalarına əsaslanan LTE layihələri həyata keçirilir. Bu layihələr nəticəsində ilin sonunadək 42 mindən çox abunəçi sabit genişzolaqlı şəbəkəyə qoşulacaq: "Görülən işlər nəticəsində ölkə əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir. Əhalinin və turistlərin ictimai yerlərdə internetə daha rahat çıxışını təmin etmək üçün Bakının 20 parkında "İctimai WiFi" istifadəyə verilib".

O vurğulayıb ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin 9 ayı ərzində İKT sektoru üzrə investisiya qoyuluşu 69 faiz artaraq 225 milyon manat olub. Sektorun gəlirləri isə 1,1 milyard manatdan 1,2 milyard manata yüksəlib, gəlirlərin artım tempi isə 7,7 faiz təşkil edib.

R.Quluzadə qeyd edib ki, hesabat dövrü ərzində ölkəmizdə beynəlxalq internet kanallarının ümumi tutumu 820 qeqabitədək artırılıb. Beynəlxalq səs trafikinin etibarlığını və təhlükəsizliyini təmin etmək məqsədilə cari ildən etibarən Beynəlxalq Telefon Stansiyasının üç ehtiyat sistemi istismara verilib.

Nazir deyib ki, Azərbaycanın təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən yeni fiber-optik magistralın yaradılmasını nəzərdə tutan Trans-Avrasiya Super İnformasiya Magistralı - TASİM layihəsi üzrə müvafiq danışıqlar davam etdirilir. TASİM Konsorsiumuna daxil olan dövlətlərin operatorları arasında layihənin texniki-iqtisadi əsaslandırılmasının hazırlanması ilə bağlı artıq protokol imzalanıb.

O əlavə edib ki, İKT-nin geniş tətbiqi, informasiya mübadiləsinin həcminin artması, məlumatların vahid mərkəzdə və təhlükəsiz saxlanması ölkədə Data Mərkəzin yaradılmasını zəruri edib: "Sevindirici haldır ki, regionun ən təhlükəsiz və müasir standartlara cavab verən Data Mərkəzi Azərbaycanda qurulub. Data Mərkəzi beynəlxalq səviyyədə qəbul edilən TIER III yüksək təhlükəsizlik standartlarına cavab verir. Mövcud Data Mərkəzdəki məlumatların qorunma təhlükəsizliyini artırmaq məqsədilə Yevlax şəhərində Ehtiyat Data Mərkəzinin tikintisinə başlanılıb".

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri bildirib ki, ölkəmizdə "Açıq Hökumət Məlumatları"nın geniş tətbiqinə başlanılıb və Açıq Hökumət Məlumatları Portalı yaradılıb.

Hesabat dövründə portalda olan açıq məlumatların sayı 655-ə çatdırılıb. R.Quluzadə deyib ki, vətəndaşların telekommunikasiya, poçt və digər xidmətlərlə daha keyfiyyətli təmin olunması məqsədilə "Şəbəkə" xidmət mərkəzləri yaradılır. Hesabat dövründə 7 yeni Şəbəkə xidmət mərkəzi istifadəyə verilərək Bakıda və regionlarda onların sayı 10-a çatdırılıb. Gələcəkdə bu layihə davamlı olaraq həyata keçiriləcək. Telekommunikasiya və poçt sahəsində vətəndaşların müraciətlərini operativ və keyfiyyətli cavablandırmaq üçün yeni vahid Çağrı Mərkəzi yaradılıb.

Nazir vurğulayıb ki, Azərbaycan Poçtu beynəlxalq tranzit poçt mərkəzi kimi fəaliyyət göstərməyə başlayıb. Layihə çərçivəsində Çindən sifariş olunan elektron ticarət məhsulları Azərbaycana gətirilir və Azərpoçt tərəfindən tranzit poçt kimi emal olunaraq, artıq dünyanın 20-dək ölkəsinə çatdırılır. Poçt daşımaları "Silk Way" və "Azal" aviaşirkətləri vasitəsilə həyata keçirilir.

R.Quluzadə qeyd edib ki, Azərbaycan 2001-ci ildən etibarən Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin üzvüdür: "Ölkəmizdə regionun ilk nüvə sterilizasiya qurğusu yaradılıb. Bu qurğu tibbi ləvazimatların, ərzaq məhsullarının, kənd təsərrüfatı məhsullarının dünya praktikasında mövcud olan ən təhlükəsiz şəkildə sterilizasiya edilməsinə imkan verir".

Nazir xatırladıb ki, bu il mayın 14-də açılışı olmuş yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Xəzər dənizi hövzəsində ən böyük liman kompleksi olmaqla, bölgənin əhəmiyyətli tranzit nöqtəsinə çevrilib: "2017-2018-ci illərdə hava, avtomobil, su, dəmir yolu nəqliyyatı sahəsində 12 ölkə ilə 15 Saziş və Memorandum imzalanıb. Beynəlxalq sərnişindaşıma ilə bağlı 25 istiqamət üzrə müntəzəm beynəlxalq marşrut rəsmiləşdirilib. Avtomobil nəqliyyatı sahəsində sərnişin və yükdaşımalar üzrə tənzimlənmə mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim edilib".

O əlavə edib ki, ümumilikdə, nəqliyyat sektoru üzrə artım tempi ötən 9 ay ərzində 1,3 faiz olub. Mülki aviasiya sahəsində böyük uğurlar əldə olunub. Hazırda Azərbaycanda müasir standartlara cavab verən 6 beynəlxalq hava limanı fəaliyyət göstərir.

# «Hələ də vergidən yayınma cəhdləri ilə qarşılaşırıq»

Bunu vergilər naziri Mikayıl Cabbarov Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışı zamanı deyib.



Nazir qeyd edib ki, 2018-ci ilin ötən 9 ayı ölkəmizdə makroiqtisadi sabitliyin, iqtisadi artımın davam etməsi və maliyyə dayanıqlığının daha da güclənməsi ilə əlamətdar olub: "Ölkə iqtisadiyyatı yüksək inkişaf dinamikasını saxlamağa müvəffəq olub, mürəkkəb xarici risklər və çağırışlar şəraitində yüksək dayanıqlılıq və sabitlik nümayiş etdirib".

M.Cabbarov bildirib ki, ölkə iqtisadiyyatında müşahidə olunan müsbət trendlər fonunda cari ilin 9 ayında 5 milyard 298 milyon manat həcmində proqnoza qarşı 5 milyard 306 milyon manat vergi toplanıb, proqnoza 100,2 faiz əməl olunub: "Ödənilən vergilərin 65,8 faizi qeyri-neft sektorunun payına düşür".

O deyib ki, neft-qaz sektorunda həyata keçirilən investisiya layihələrinin aktiv fazasının başa çatması qeyri-neft sektorundan vergi daxilolmalarına təsir etsə də, qeyri-neft sektorunun digər sahələrindən daxilolmaların artması, həmçinin neft sektorundan olan artım hesabına 2018-ci ilin 9 ayında əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,6 faiz və ya 81,4 milyon manat çox vəsait toplanıb: "Cari ilin 9 ayında qeyri-neft sektorunun özəl bölməsindən vergi yığımları 7 faiz artıb, onun qeyri-neft vergilərində xüsusi çəkisi ötən ilin müvafiq dövründəki 51 faizdən 59 faizə yüksəlib".

Nazir vurğulayıb ki, regionların sosial-iqtisadi inkişafı konsepsiyasının uğurla həyata keçirilməsi, o cümlədən yeni iş yerlərinin açılması vergitutma bazasının genişləndirilməsi ilə nəticələnib, hesabat dövründə regionlardan vergi daxilolmaları 508,0 milyon manat təşkil etməklə, ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,0 faiz artıb. Tədiyə növləri üzrə aparılan təhlil göstərir ki, qeyri-neft sektorundan daxil olan bütün vergi növləri üzrə artım qeydə alınıb.

M.Cabbarov əlavə edib ki, Azərbaycanda yaradılmış əlverişli iqtisadi mühit, böyük daxili istehlak bazarının mövcudluğu, ixracın təşviqi üçün görülən tədbirlər insanları sahibkarlıq fəaliyyətinə stimullaşdırır: "Lakin bu sahədə hələ də uçotsuz fəaliyyət, qeyri-rəsmi məşğulluq, real dövriyyənin gizlədilməsi və vergidən yayınma cəhdlərinin geniş yayıldığı ilə qarşılaşırıq. Bu kimi halların qarşısının alınması olduqca vacibdir."

Onun sözlərinə görə, sadələşdirilmiş verginin əhatə dairəsinin hər il genişləndirilməsinin təhlili nəticəsində müəyyən edilib ki, verilən bu dəstəkdən sui-istifadə hallarının sayı artır. Kifayət qədər dövriyyəyə malik, böyük əməliyyatlar aparan bir sıra iri vergiödəyiciləri tərəfindən dövriyyələrin "parçalanması", müxtəlif yollarla sadələşdirilmiş vergitutma rejimində qalmaqla vergidən yayınmaq üçün cəhdlər edilir.

Nazir bildirib ki, uzun müddət formalaşmış vergi ödəmə vərdişlərinin dəyişdirilməsi çətin, lakin həllini tələb edən prosesdir. Vergi administrasiyası bu istiqamətdə öz fəaliyyətinin vergi mühitinin şəffaf, bərabər, hamı üçün eyni və əvvəlcədən təxmin edilən prinsiplər əsasında qurulmasını davam etdirəcək.

M.Cabbarov qeyd edib ki, Dövlət Gömrük Komitəsi ilə birlikdə idxal-ixrac əməliyyatlarına effektiv nəzarət sisteminin qurulması istiqamətində tədbirlər həyata keçirilir: "Xüsusi olaraq, Vahid Risk Platformasının tətbiqini qeyd etmək istərdim. Bu sahədə rastlaşdığımız əsas problemlərdən biri üçüncü şəxslər üçün malları idxal edən vergiödəyiciləri ilə bağlı idi. Düzdür, bəzi məsələlərin həllini hələlik başa çatdıra bilməmişik. Oktyabrın 5-də hər iki qurumun keçirdiyi birgə kollegiya iclasında açıq qalan məsələlərin həlli yolları müzakirə edildi. Ümidvarıq ki, Dövlət Gömrük Komitəsi ilə birlikdə bu işləri cari ilin sonuna qədər yekunlaşdıra biləcəyik. Hesab edirik ki, həyata keçirilən tədbirlərin çox müsbət fiskal nəticələri olacaq".

O deyib ki, aksizli malların dövriyyəsinə vergi nəzarəti gücləndirilib, ən iri 30 istehsalçıda cari ilin avqustun 1-dən aksiz postları qurulub. Aksizsiz tütün məhsullarının daxili bazarda satışının qarşısının alınması, təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində keçirilən tədbirlər nəticəsində daxili bazarda qaçaq malın payı cari ilin əvvəlindəki 19 faizdən 3 faizə enib. İlin əvvəlindən dövlətin nəfinə müsadirə olunan və təhvil verilən tütün məmulatlarının dəyəri 13 milyon manatdan çoxdur. Qanunsuz olaraq daxili bazara yol tapmış tütün məhsullarının müsadirə edilərək, satışdan çıxarılması nəticəsində yerli məhsulların istehsalında canlanma yaranıb. Belə ki, yerli istehsalçıların daxili bazarda satış həcmi ötən ilin yanvar-avqust ayları ilə müqayisədə cari ilin müvafiq dövründə 75 faiz artıb.

M.Cabbarovun sözlərinə görə, 2018-ci ilin 9 ayı ərzində vergi ödəməkdən yayınma faktları üzrə istintaq olunan cinayət işləri üzrə vurulmuş ziyandan 17,6 milyon manat məbləğin ödətdirilməsi təmin edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 25 faiz çoxdur.

# Xalçaçılıq ölkəmizə valyuta gətirən, qadınlar arasında işsizliyi aradan qaldıran sahədir

Bunu "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışı zamanı deyib. O, qeyd edib ki, xalçaçılığın çox böyük potensialı var. Dövlət vəsait ayırıb, bütün xalça fabrikləri dövlət hesabına tikilir, bütün avadanlıqlar dövlət vəsaiti hesabına alınır. Biz bütün istehsal zəncirini ardıcıllıqla yaratmalıyıq. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin xalçaçılığın inkişafı ilə bağlı imzaladığı sərəncamlar, "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" ölkəmizdə ənənəvi xalq üsulu ilə kütləvi xalça istehsalını, onun qeyri-neft sektorunun aparıcı sahəsinə çevrilməsini təmin edir.



Dövlət başçısının 2016-cı il 5 may tarixli Sərəncamı ilə yaradılan "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti 2016-2017-ci illərdə Füzuli, Ağdam, Şəmkir, Tovuz, Ağstafa, Qazax, İsmayıllı, Qəbələ, Quba və Xaçmaz rayonlarında filiallar yaradıb. Bu filialların hər birində 150 nəfər toxucunun, 14 nəfər inzibati-təsərrüfat işçisinin çalışması üçün müasir iş şəraiti yaradılıb, Azərbaycanda istehsal edilmiş 43 dəzgah quraşdırılıb və hazırda milli və orijinal çeşnilər əsasında xalçalar toxunur.

Ümumi sayı 900 nəfərə yaxın olan toxucularımızın əksəriyyəti gənclərdir. Filiallarda indiyədək Azərbaycan xalçalarının Bakı, Qarabağ, İrəvan, Naxçıvan, Quba, Gəncə, Şirvan, Qazax-Borçalı, Təbriz qrupları üzrə 1330 ədəd, 4401 kvadratmetr xalça toxunub. Yerli və xarici bazarlarda "Azərbaycan brendi" olaraq 287 ədəd, 853 kvadratmetr xalça satılıb.

V.Muradov qeyd edib ki, Azərbaycan xalçaçılığının inkişafı ilə bağlı həyata keçirilən işlərə İqtisadiyyat Nazirliyi tərəfindən lazımi kömək göstərilir, dəstək verilir. Bu il "Azərxalça"nın daha 10 filialının yaradılması üçün vəsait ayrılıb. Həmçinin, 20 emalatxana binasının tikintisi, infrastrukturunun yaradılması, avadanlıq və dəzgahlarla təchizatı üçün "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə Azərbaycan Respublikasının dövlət büdcəsində investisiya xərcləri üçün nəzərdə tutulan vəsaitdən 37 milyon 475 min manat vəsait ayrılıb.

İsmayıllıda yeni xalça istehsalı emalatxanasının tikintisinə Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 2 milyon 400 min manat vəsait yönəldilib.

2019-cu ildə Bakı şəhərinin Qaradağ rayonunda, Gəncə, Mingəçevir, Şəki şəhərlərində, Xızı, Masallı, Zaqatala, Bərdə rayonlarında, Ağcabədi rayonunda Laçın rayonundan olan məcburi köçkünlərin məskunlaşdığı Taxtakörpü qəsəbəsində, Goranboy rayonunda Xocalı rayonundan olan məcburi köçkünlərin məskunlaşdığı Aşağı Ağcakənd qəsəbəsində xalça istehsalı emalatxanaları yaradılacaq. Bunun üçün yerli icra hakimiyyəti orqanları ilə birlikdə müvafiq tədbirlər həyata keçirilir, tikinti işlərinin aparılması üçün ərazilər müəyyənləşdirilir.

2017-2018-ci illərdə "Azərxalça"-nın istehsalı olan xalçalar Rusiya, Amerika Birləşmiş Ştatları, Almaniya kimi ölkələrdə keçirilən beynəlxalq xalça satış-sərgilərində təqdim olunub. İndi Avropanın, Amerika Birləşmiş Ştatlarının, Yaponiyanın, Rusiyanın böyük xalça şirkətləri ilə danışıqlar aparılır, əməkdaşlıq haqqında müqavilələr hazırlanır. Bu müqavilələr əsasında həm hazır xalçalar satılacaq, həm də sifarişlərlə müxtəlifölçülü xalçaların toxunmasına başlanılacaq.

**(əvvəli 2-ci səhifədə)**

Belə hallar var və köçkünlər xoşagəlməz hallarla üzləşirlər. Növbə ilə bağlı məsələlər var. Yəni, ədalətsizliklər aradan qaldırılmalıdır və pozuntulara yol açan boşluqlar da bağlanmalıdır. Növbədə dayanan, ən ağır vəziyyətdə yaşayan vətəndaş, ilk növbədə, mənzil almalıdır, belə göstəriş verilib. Mənzil ancaq köçkünə verilməlidir. Bəzi hallarda məlumat gəlir ki, köçkünlər üçün tikilmiş evlərdə başqa vətəndaşlar yaşayır. Bəzi hallarda biləndə ki, misal üçün, ev söküləcək, yeni evə köçürüləcəklər, yerli icra orqanları, digər qurumlar gedib oraya pul müqabilində köçkün olmayan adamların adlarını yazdırırlar. Bu, ən böyük vicdansızlıqdır. Köçkünlərin vəziyyətindən istifadə edib əsassız imtiyaz, gəlir əldə etmək ən böyük günahdır, vicdansızlıqdır. Bunu edənlərin vicdanı, imanı yoxdur. Ona görə bunlara qarşı çox ciddi mübarizə aparılır və aparılacaq, onlar eşitsinlər. Burada çox ciddi şəffaflıq və uçot təmin edilməlidir və ediləcək.

İnfrastruktur layihələri ilə bağlı ilin sonuna nəzərdə tutulan bütün məsələlər öz həllini tapır. Qazlaşdırma 94 faizə çatıb, hədəf 95 faiz idi, ilin sonuna qədər biz buna nail olacağıq. Bu ilin sonuna qədər "Şimal-2" elektrik stansiyasının istifadəyə verilməsi nəzərdə tutulur. Bu, bizim sistemimizə əlavə 400 meqavat enerji verəcək. Bu, çox böyük gücdür. Eyni zamanda, enerji sistemimizdə çox ciddi islahatlar, təhlil aparılır. Yay ayında baş verən o qəzanın səbəbləri tam araşdırılıb və müvafiq inzibati ölçülər götürülüb. İnvestisiya qoyuluşu, bizim enerji təsərrüfatının texniki vəziyyəti ilə bağlı çox ciddi addımlar atılıb, bu işlərə beynəlxalq məsləhətçilər cəlb edilib. Biz bu il və gələn il bu sahəyə əlavə vəsait ayıracağıq ki, həm generasiya güclərinin yaradılması, ötürücü xətlərin, yarımstansiyaların tam dayanaqlılığı təmin edilsin. Eyni zamanda, mövcud stansiyaların generasiya güclərinin artırılması üçün əlavə addımlar atılacaq. Çünki vaxtilə tikilmiş stansiyalar tam gücü ilə işləmir. Mənə məlumat veriləndə cədvələ baxıram ki, 80 meqavat nəzərdə tutulub, cəmi 15 meqavat işləyir. Bunları belə səmərəsiz şəkildə istismar ediblər ki, onların bəziləri demək olar ki, öz potensialını itirib. Biz bunları bərpa edəcəyik.



Təbiidir, müəyyən qədər vaxt lazım olacaq. Ancaq bu sahədə tam yeni bir yanaşma olmalıdır. Biz bu gün də elektrik enerjisini ixrac edirik, bizdə kifayət qədər potensial var. Gələcəkdə özümüzü perspektivləri nəzərə alaraq təmin etməklə ixracımızı da artıracağıq...

Ölkəmizin ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün işlər görülür, təhlil aparılır. İlk növbədə, neftlə çirklənmiş ərazilər təmizlənir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müvafiq göstəriş verilib, vəsait ayrılıb. Abşeron yarımadasında neftlə çirklənmiş yerlər tam təmizlənəcək, həmin yerlərdə bağlar, yaşıllıqlar, göllər salınacaq. Bu işlər gedir, gələn il də nəzərdə tutulur. Xəzərin sahilində yeni təmizləyici qurğuların yaradılması istiqamətində işlər gedir. Burada da vəziyyət bizi tam qane edə bilməz. Havanı çirkləndirən məişət obyektlərinə ciddi xəbərdarlıq edilib. Axsam saatlarında Bakı şəhərini tüstü bürüyür. Şadlıq evlərində tüstü təmizlənmədən havaya sovrulur. Ona görə çox ciddi xəbərdarlıq edilib, kim əməl etməyəcəksə, o şadlıq evinin, məişət obyektinin qapısı bağlanacaq. Mən tapşırmışam ki, bunun üçün hüquqi əsaslar hazırlansın. Bildiyimə görə, birinci xəbərdarlıqdan sonra bir çox məişət obyektləri təmizləyici qurğuları quraşdırmağa başlayıblar. Onların hamısına məsləhətim ondan ibarətdir ki, bu işi tezləşdirsinlər. Çünki ikinci xəbərdarlıq olmayacaq, bir də görəcəklər ki, əldən çıxdı. Ona görə tezliklə bütün böyük-kiçik məişət obyektlərində havanı çirkləndirən, havaya tüstü, kanserogen buraxan obyektlərdə təmizləyici qurğular quraşdırılmalıdır, müvafiq qurumlar monitorinq aparmalıdır. Mən Bakı Şəhər İcra Hakimiyyətinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə göstəriş verdim ki, mənə dərhal məlumat verilsin və dərhal ölçü götürüləcək.

Ağacların kəsilməsi halları azalıb, amma tam aradan qaldırılmayıb. Bir daha demək istəyirəm ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyi olmadan əgər kimsə bir ağac kəsirsə, onda özündən küssün. Bakı şəhərində və digər şəhərlərdə qanunsuz tikililərə son qoyulmalıdır və son qoyulur. Müvafiq Sərəncam imzalanıb, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin icazəsi olmadan bir dənə də bina tikilə bilməz. Bu məsələ ilə bağlı mən əvvəllər də fikirlərimi bildirmişəm. Bu gün deyə bilərəm ki, artıq bu məsələ öz həllini tapıb. Çünki əvvəlki dövrlərdə təqsiri bələdiyyələr rayon icra hakimiyyətlərinin, rayon icra hakimiyyətləri Bakı Şəhər İcra Hakimiyyətinin, Bakı Şəhər İcra Hakimiyyəti bələdiyyələrin, yəni, bir-birinin üstünə atırdılar. Amma əslində hamısı əlbir idilər. Çünki qanunsuz tikililərdən böyük qazanc əldə edirdilər. Buna son qoyulub, artıq Sərəncam imzalanıb. Yəni, bu qaydanı pozan cinayət məsuliyyətinə cəlb ediləcək və qanunsuz tikilən binalar dərhal söküləcək.

Bakı dünyanın ən gözəl şəhərlərindən biridir və kiminsə tamahı naminə biz şəhərimizi eybəcər hala sala bilmərik. Şəhərsalma qaydaları var, mərtəbələrin yerə görə hündürlüyü var. Hava axınının müvafiq qaydaları var. Bizdə isə bu, pozulurdu. Elə bil ki, böyük bir sədd tikirdilər. Havanın keçməsi üçün heç bir imkan qalmırdı, həyətlərdə ağacları qırıb binalar tikirdilər. Yerli orqanlar buna həm göz yumurdular, həm də yəqin ki, əlbir idilər. İndi buna son qoyulub. Mən bunu bildirmək istəyirəm. Vətəndaşlara da mən müraciət etmək istəyirəm, ilk növbədə, təşəkkürümü bildirmək istəyirəm. Çünki bir çox hallarda vətəndaşların fəallığı nəticəsində o tamahkar adamlar istədiklərinə nail ola bilməmişlər. Çünki vətəndaşlar dururdular, keşik çəkirdilər, qoymurdular, xəbər verirdilər və onların fəallığını mən alqışlayıram. Dəfələrlə demişəm ki, ictimai nəzarət güclü olmalıdır, artıq biz bunu görürük. Ona görə bir daha vətəndaşlara müraciət edirəm. Əgər haradasa görsələr ki, qanunsuz nəsə tikilir, dərhal məlumat versinlər, ilk növbədə, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, Bakı Şəhər İcra Hakimiyyətinə və Prezident Administrasiyasına. Bu sahədə də qayda-qanun yaradılır.

Şəhər nəqliyyatı sahəsində də irəliləyiş var. Biz şəhər nəqliyyatının təkmilləşdirilməsi işində islahatlar aparırıq, həm yol-nəqliyyat hərəkətinin tənzimlənməsi, eyni zamanda, yeni yolların açılması, nəqliyyat vasitələrinin alınması istiqamətində. Bu il şəhərimizə əlavə 300 yeni müasir avtobus gətiriləcək. Mən göstəriş vermişəm, gələn il də, minimum 300, əgər maliyyə imkanımız olsa, 500 yeni avtobus gətirilməlidir. Dövlət bu sahədə öz liderliyini göstərməlidir. Çünki son vaxtlar baş vermiş dəhşətli qəzalar bizim hamımızı çox üzür və bu, vətəndaşlar üçün çox böyük faciədir, böyük itkidir. Nəyə görə? Çünki sükan arxasında oturan öz məsuliyyətini dərk etmir. Onun psixoloji, narkoloji durumuna, peşəkarlığına lazımi qaydada nəzarət olunmur, sadəcə olaraq pul naminə. Şirkətə pul lazımdır. Ona görə də bədbəxt hadisələr baş verir. Avtobus qatara çırpılır, günahsız insanlar həlak olur. Mühafizə orqanları belə hallara çox ciddi reaksiya verməlidir və belə hallar nəzarətdə olmalıdır. Çünki bəzi hallarda bu hadisəni törədənlər müəyyən müddətdən sonra məsuliyyətdən yayınırlar. Ona görə buna son qoymaq üçün müvafiq qurumlar tərəfindən çox ciddi təftiş aparılmalıdır. Avtobusları idarə edən şirkətlər çox ciddi nəzarətə götürülməlidir. Avtobusların texniki parametrləri ilə bağlı çox ciddi təftiş aparılmalıdır. Mən bir daha demək istəyirəm, əfsuslar olsun ki, özəl sektor bu sahədə istədiyimizə nail ola bilmədi. Bu sahə, ümumiyyətlə, özəl sektorun ixtiyarına buraxılmışdı. Belə bir fikir var idi ki, onlar bunu yaxşı idarə edəcəklər, məsuliyyətlə. Amma biz nəyi görürük? Gedirlər sıradan çıxmış, sınıq-salxaq avtobusları gətirib salırlar bizim küçələrimizə. Həm insanlar, həm hava üçün təhlükədir, həm də ümumiyyətlə, heç bir normaya sığmır. Ona görə bizim dövlət qurumumuz var – "Bakubus" şirkəti. Onların xətti ilə biz bu işi davam etdirməliyik. Əgər özəl şirkətlər bu sahədə işləmək istəyirlərsə, öz işlərində çox ciddi dəyişiklik etməlidirlər və dövlət orqanları onlara çox ciddi nəzarət etməlidir.

Mən məişət tullantıları ilə bağlı müvafiq göstəriş vermişəm. Bu sahə Bakı şəhərində lazımi səviyyədə tənzimlənmir. Ona görə vahid bir zəncir yaradılmalıdır - qapıdan ta Balaxanı məişət tullantılarının emalı zavoduna qədər. Ona görə indi müvafiq qurumlar bu məsələ ilə bağlı təkliflər hazırlayır. Mən göstəriş vermişəm ki, bu işlərə beynəlxalq məsləhətçilər cəlb edilsin, bu sahədə də dünyanın aparıcı şəhərlərinin mövcud təcrübəsi Azərbaycanda tam tətbiq olunsun.

Eyni zamanda, Bakı Şəhər İcra Hakimiyyətinə göstəriş vermişəm ki, binaların həyətləri abadlaşdırılsın, orada həm yaşlı insanlar, həm də uşaqlar üçün şərait yaradılsın, həyətlər bütün qanunsuz tikililərdən təmizlənsin, lift təsərrüfatı təzələnsin, harada ki, ehtiyac var yeni liftlər qoyulsun. Yəni, mənzil-kommunal təsərrüfatının yeniləşməsi istiqamətində çox ciddi addımlar atılacaq. Bakı şəhərində isə yeni parklar, bulvarlar salınır. Bakı indi gözəl parklar, xiyabanlar şəhəridir. Köhnə, yararsız vəziyyətdə olan sənaye müəssisələri şəhərin mərkəzindən çıxarılır, yeni gözəl parklar salınır. Bu il də onlardan biri Babək prospektində, Heydər Əliyev Mərkəzinin aşağısında, Yusif Səfərov küçəsində salınıb və vətəndaşların sərəncamına verilib. Biz bu istiqamətdə işlərimizi davam etdirəcəyik.

Dəmir yolu ilə bağlı bəzi layihələri qeyd etmək istərdim. Mən ilin əvvəlində demişdim ki, bu ilin sonuna qədər Bakı-Gəncə sürət qatarının işə salınması prosesi başa çatmalıdır. İlin sonuna artıq az vaxt qalıb. Yəqin ki, biz bunu görəcəyik. Hər halda, kifayət qədər vəsait ayrılıb. Digər istiqamətlər üzrə - Bakı-Yalama dəmir yolunun yenidən qurulması istiqamətində, Bakı-Qəbələ dəmir yolunun çəkilişi ilə bağlı işlər gedir. Eyni zamanda, Bakı dairəvi avtomobil yolunun tikintisi davam edir. Bu da şəhər nəqliyyatı üçün çox önəmli bir layihə olacaq və bunu biz metro tikintisi ilə uzlaşdırmalıyıq. Onu da qeyd etməliyəm ki, bu ilin Dövlət İnvestisiya Proqramında metro tikintisi üçün də kifayət qədər vəsait ayrılmışdır. Gələn ilin əvvəlində biz növbəti regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramını qəbul edəcəyik. Bu il üçüncü proqramın icrası başa çatır.

Proqram, demək olar ki, artıqlaması ilə icra edilib. İndi dördüncü proqram hazırlanır, son mərhələdədir. Dördüncü proqramda bu gün hələ də görə bilmədiyimiz işlər öz əksini tapmalıdır ki, qarşımızda duran bütün vəzifələr icra edilsin.

# MƏQSƏD BANKLARIN REAL SEKTORA DƏSTƏYİNİ ARTIRMAQDIR

Oktyabrın 8-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, komitə sədri Ziyad Səmədzadə gündəliyə ikinci oxunuşla əlaqədar olaraq 8 məsələnin daxil olduğunu deyib. Bildirilib ki, bu dəyişikliklərin əhəmiyyətli hissəsi bankların fəaliyyəti ilə bağlıdır. "Prezident İlham Əliyev oktyabrın 4-də Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzalayıb. Heç şübhəsiz ki, bu sənəd ölkədəki bankların fəaliyyətində ciddi dönüşün yaranmasına səbəb olacaq", - deyə komitə sədri qeyd edib.

Z.Səmədzadə söyləyib ki, bu gün nəzərdə tutulan dəyişikliklərin əsas məqsədi bankların real sektora dəstəyini artırmaq, bürokratik əngəlləri aradan qaldırmaqdır. Eləcə də digər qanun layihələri qanunların səmərəliliyinin artırılması və icra mexanizminin təkmilləşdirilməsini nəzərdə tutur.

Qeyd edilib ki, Vergi və Gömrük məcəllələrində edilməsi nəzərdə tutulan dəyişikliklər "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli Qanununun icrası məqsədilə hazırlanıb.

Mülki Məcəlləyə "Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli Fərmanının 9.2-ci bəndinin icrası, habelə bu sahədə məmur-vətəndaş təmasının minimum səviyyəyə çatdırılması, şəffaflığın artırılması, sağlam və təhlükəsiz elektron informasiya mübadiləsinin təmin edilməsi məqsədilə bir sıra dəyişikliklər ediləcək. Dəyişikliklər daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının qeydiyyatının və dövriyyəsinin elektron qaydada təşkili ilə bağlı müddəalarının hüquqi əsasının formalaşdırılmasını, həmçinin ipoteka kağızının tərtib olunması, ipoteka qoyan tərəfindən imzalanmasını, onun notariat qaydasında təsdiqlənməsi və digər prosedurların elektron qaydada həyata keçirilməsini nəzərdə tutur.

"Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının təklifləri əsasında bəzi ziddiyyətlərin aradan qaldırılması məqsədilə hazırlanıb. Dəyişikliyə əsasən bankın digər idarəetmə orqanlarının üzvü olan şəxslər bankın Audit Komitəsinin üzvü ola bilməz. Qanuna, həmçinin bir sıra texniki dəyişikliklərin edilməsi də nəzərdə tutulur.

"İpoteka haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının qeydiyyatının və dövriyyəsinin elektron qaydada təşkili ilə bağlı müddəaların hüquqi əsasının formalaşdırılmasını, həmçinin ipoteka kağızının tərtib olunmasını, ipoteka qoyan tərəfindən imzalanmasını, onun notarial qaydada təsdiqlənməsini və digər prosedurların elektron qaydada həyata keçirilməsini nəzərdə tutur.




Mülki Məcəlləyə edilməsi nəzərdə tutulan dəyişiklik daha çox dəqiqləşdirmə məqsədi daşıyır. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu Mülki Məcəllənin digər qanunverici aktlarla müqayisədə mülki münasibətlərin tənzimləməsində üstünlük hüququnu müəyyənləşdirir. Üstünlük hüququnun qorunması məqsədi ilə hazırlanmış qanun layihəsi beynəlxalq təcrübəyə əsaslanıb. Hesab edilir ki, həm beynəlxalq təcrübə, həm Mülki Məcəllə, həm də mövcud yanaşma nəzərə alınaraq audit komitəsi müşahidə şurası tərəfindən yaradılmalıdır. İclasda, həmçinin "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Lotereyalar haqqında" qanunlarda dəyişikliklər edilməsi barədə qanunun layihələri ikinci oxunuşda müzakirə edilib.

Deputatlar gündəlikdəki məsələlər barədə fikir və təkliflərini səsləndiriblər. Sonra bütün qanun layihələri ikinci oxunuşda plenar iclasa tövsiyə edilib.

# Dolların hegemonluğunun sonu çatıb



Amerikanın ən məşhur işgüzar nəşri olan "Bloomberg" dünyanın əsas ehtiyat valyutasının hegemonluğunun sona çatdığını elan edib. Agentlik qeyd edir ki, ABŞ hakimiyyətinin hərəkətləri ölkələri dollardan uzaqlaşmağa təhrik edir.
Materialın müəllifləri Avropa komissiyasının rəhbəri Jan-Klod Yunkerin avropalıların öz mallarını Amerika milli valyutası ilə almağa məcbur olmaları haqqında narazılığını xatırladırlar. Belə vəziyyəti Yunker "absurd" adlandırıb. AK sədrini Fransa Maliyyə Nazirliyinin rəhbəri Bruno Le Mayr dəstəkləmişdir. O bildirmişdir ki, Vaşinqtondan asılı olmayan "tam azad" maliyyə alətlərinə malik olmaq istəyir.
Moskva Amerika hakimiyyətinin hərəkətlərinin doğurduğu riskləri qiymətləndirərək, dollarda olan aktivlərini ixtisar edir. Pekin isə enerji daşıyıcılarının daşınması haqqında müqavilələri daha çox yuanla bağlayaraq dolların dominantlığına təhlükə yaradır.
Nəşrin yazdığına görə, bütün bunlar ABŞ üçün heç bir yaxşı şey vəd etmir. Bununla yanaşı, müəlliflər hesab edirlər ki, belə bir vəziyyətin yaranmasında Amerika hakimiyyəti günahkardır. Vaşinqton tərəfindən həddən artıq maliyyə sanksiyalarının tətbiq edilməsi, o cümlədən öz müttəfiqlərinə münasibətdə, dolların zərər çəkməsi ilə nəticələnə bilər. Misal kimi, Avropa ölkələrinin ödəniş sistemi yaratmaları haqqında bəyanatları göstərilir. Bu ödəniş sistemi ABŞ-ın sanksiyasına tuş gəlmiş ölkələrlə ikinci sanksiyalar kimi cavab tədbirlərinə məruz qalmadan hesablaşma aparmağa imkan verərdi.
Lakin agentliyin ekspertləri rəqabət aparan valyutaların zəifliyini göstərərək hesab edirlər ki, Amerika hökumətinin hələ də vəziyyəti düzəltmək üçün zamanı var. Avrozonadakı problemlər və Çinin kapital axınının açıqlığı və qlobal ticarət məsələlərində ehtiyatlı davranışı hələ ki, dollara kömək edir.

# İsveçrə Federal Şurası: Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində yaxşı imkanlara malikdir

Trendin verdiyi məlumata görə, İsveçrə Federal Şurası Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində aktiv fəaliyyəti üçün yaxşı imkanlarının olduğunu hesab edir.
"Azərbaycan Şərqlə Qərb, Şimalla Cənub arasında ticarətin asanlaşması üçün öz nəqliyat dəhlizlərinin inkişafı istqamətində səylərini intensivləşdirir. Beləliklə, ölkənin bizim şirkətlərin böyük marağına səbəb olmuş yeni "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində fəal rol oynamaq imkanı var", – Federal Şurada deyiblər. Federal Şurada qeyd etdilər: "Azərbaycan Dövlət Dəmir Yolları Şirkəti tərəfindən sifariş olunmuş şirkət qatarları Bakı-Tbilisi-Qars (BTQ) istiqamətində hərəkət edəcəklər".
Əvvəl "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov demişdir ki, Azərbaycana Stadler Rail Group İsveçrə şirkətinin istehsalı olan 30 vaqonun gətirilməsi planlaşdırılır.
"Gələn ilin ilk aylarında Azərbaycana 30 vaqon gətiriləcək. Vaqonlar İsveçrənin Sürix şəhərində istehsal olunur. Yeni qatarlar vasitəsilə Qarsa 10 saata, Ankaraya isə 20 saata çatmaq mümkün olacaq", – Qurbanov qeyd edib.



Qeyd edək ki, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılışı 30 oktyabr 2017-ci ildə Bakı Beynəlxalq Dəniz Ticarət Limanında baş verib. BTQ dəmir yolu Azərbaycan-Gürcüstan-Türkiyə dövlətlərarası razılaşması əsasında salınıb. Başlanğıc mərhələdə yük daşımasının həcmi 6,5 milyon ton olacaq, həmçinin bir milyon sərnişin daşınacaq.

# Gələn il neftin qiyməti 68,78 dollar/barrel olacaq

Beynəlxalq Valyuta Fondu (IMF) neftin bir barrelinin qiymətinin 2019-cu ildə 68,78 dollar təşkil edəcəyini nəzərə tutur.



Bu barədə IMF-nin "World Economic Outlook" hesabatında bildirilir.
"2018-ci ildə neftin qiyməti orta hesabla 69,38 dollar/barrel səviyyəsində olacaq. Qlobal neft təklifinin artacağı nəzərə alındıqda neft qiymətinin 2019-cu ildə 68,78 dollara, 2023-cü ildə isə təxminən 60 dollar/barrelə düşməsi gözlənilir", - deyə hesabatda qeyd olunur.

# Azərbaycan Maliyyə Nazirliyi gəlirliliyi 8% olan manat istiqrazları buraxır




Trendə istinadən bildirilir ki, oktyabrın 9-da Bakı Fond Birjasında (BFB) Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 30 milyon manat dəyərində orta müddətli manat istiqrazlarının yerləşdirilməsi üzrə hərrac keçirilmişdir.
Hərracda hər birinin nominal dəyəri 100 manat və dövriyyə müddəti 728 gün olan 300 min səhm təqdim olunub. İstiqrazlar üzrə ödənişin müddəti 6 oktyabr 2020-ci ildir. İstiqrazlar üzrə faiz dərəcəsi 8% təşkil edir.
Buraxılışın anderrayteri kimi PASHA Capital investisiya şirkəti çıxış edəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# Əsas məqsəd əhalini təhlükəsiz və keyfiyyətli məhsullarla təmin etməkdir

***Azərbaycan əhalisinin ərzaq və kənd təsərrüfatı məhsulları ilə etibarlı şəkildə təmin edilməsi dövlətin sosial-iqtisadi siyasətinin prioritetlərindən biridir. Son illərdə ərzaq təminatına nail olmaq sahəsində böyük irəliləyiş əldə olunmuş, məhsulların keyfiyyəti artırılmış və bu sektorun ixrac potensialı gücləndirilmişdir.***
***Azərbaycanın ərzaq və kənd təsərrüfatı sektorları milli iqtisadiyyatın vacib hissəsidir. Bunu nəzərə alaraq "Gilan Holding" də istehsalı artırmaq, əhalini təhlükəsiz və keyfiyyətli məhsul və xidmətlərlə təmin etmək üçün bu sahədə əsaslı addımlar atır.***
***"Gilan Holding" müasir texnologiyaları tətbiq etməklə təbii və sağlam məhsulların inkişaf etdirilməsini həyata keçirir. Əsas hədəf istehlakçılara sağlam, təbii və dadlı məhsullar nümayiş etdirmək, həmçinin şirkəti ərzaq və kənd təsərrüfatı məhsullarının geniş çeşidlərinin istehsalçısı və təchizatçısına çevirməkdir.***
***"Gilan FMCG and AgricultureGroup" süd məhsulları, meyvə şirəsi və nektarları, spirtsiz içkilər, konservləşdirilmiş məhsullar, kartof çipsləri, frenç frayz (kartof fri), mal-qara və taxıl məhsullarının istehsalı üzrə ixtisaslaşmışdır. Şirkətin portfelinə, eyni zamanda, ölkənin müxtəlif ərazilərində yerləşən süd fermaları, meyvə bağları və tərəvəz sahələri, həmçinin emal zavodlarına nəzarət edilməsi daxildir. Bu şirkətlər qrupu tərəfindən istehsal olunan məhsullar dünyanın müxtəlif ölkələrinə ixrac edilir.***

**Holdinq daxilində üzvi gübrə-kompostun istehsalı da həyata keçirilir**

Dünyanın ən qlobal problemlərindən biri torpaq münbitliyinin və məhsuldarlığının azalması ilə nəticələnən torpaqların deqradasiyası və eroziyası prosesləridir. Son dövrlərdə bu proseslər nəinki aqrar sahənin, həmçinin ekoloji vəziyyətin də başlıca probleminə çevrilmişdir. Günü-gündən sürətlənən bu proseslər nəticəsində ekoloji tarazlıq pozulur və kənd təsərrüfatına yararlı torpaq sahələri dövriyyədən çıxır. Bunu nəzərə alaraq, Gilan Kənd Təsərrüfatı Qrupuna aid meyvə bağlarında və digər təsərrüfatlarda torpaqların bərpası və məhsuldarlığının artırılması məqsədilə üzvi gübrə-kompostun istehsalına başlanılmışdır. İlkin istehsala iyul ayında Göyçay rayonu Veysəlli kəndində nar bağının boş sahəsində start verilmişdir. Bu sahə əvvəlcədən təmizlənmiş, hamarlanmış və kənarlarından kanal qazılmışdır ki, bağ suvarılarkən artıq sular üzvi gübrə istehsal olunan əraziyə daxil olmasın. Kompost istehsalına aid bu ilkin layihədə məqsəd 1250 t xammal və 1300 lt bakteriyalı bioloji preparat "Fermentstart"dan istifadə edərək, 1000 t üzvi gübrə əldə etməkdir. Bakteriyalı bioloji preparat - "Fermentstart" ilə üzvi tullantıların (peyin, quş zılı, çay lili və s.) fermentasiyası zamanı faydalı mikroorqanizmlər temperaturu 55-650 C-yə qədər qaldıraraq, salmonella, bağırsaq çöpləri (Escherichia coli), helmint yumurtaları və s. patogen mikrofloranı (xəstəlik törədicilərini) məhv edir. Faydalı mikroorqanizmlər tərəfindən ağır metallar bitkilərin mənimsəyə bilməyəcəyi formalara çevrilir. Hər 15-20 dəqiqədən bir mikroorqanizmlər ölərək zülala çevrilir ki, bu da bitkilərin qida üçün zəruri və mühüm elementidir. Qeyd edək ki, iyul ayı ərzində tələb olunan xammaldan 817 t (peyin 440 t, çay lili 300 t, saman 37 t, mineral gübrə 40 t) tədarük edilib.
"Barlı bağlar"dan dadlı məhsullar
Azərbaycanda fındıqçılıq tarixən formalaşmış, artıq özünəməxsus, ənənəvi bir sahəyə çevrilmişdir. Ölkədə bu sahənin inkişafı üçün imkanların çox geniş olması, yəni uyğun torpaq sahələrinin, iqlim şəraitinin, ixtisaslı kadrların, maddi-texniki bazanın olması son illər bu sahəyə diqqəti daha da artırmışdır. Ölkədə yetişən fındığın dadı və keyfiyyəti baxımından özünəməxsusluğu dünyada da bu məhsula olan tələbatı daim artırmaqdadır. Bir sözlə, yüksək keyfiyyəti ilə Azərbaycan məhsulu kimi özünü təsdiqləmiş bu məhsul artıq dünya bazarında da özünəməxsus mövqeyə malikdir. Xüsusilə, qeyd etmək lazımdır ki, tarix boyu salınmış fındıq bağları hazırda potensial məhsul mənbəyi kimi yüksək dəyərləndirilir. Həmin bağların qorunması və ömrünün uzadılması məqsədilə onlara düzgün aqrotexniki qulluq göstərmək vacibdir. Gilan Kənd Təsərrüfatı Qrupu tərəfindən reallaşdırılan "Barlı bağlar" layihəsi çərçivəsində böyük fındıq ehtiyatına malik Qəbələ rayonunda fermerlərə məxsus bağlara düzgün aqrotexniki qulluq göstərmək üçün "Gilan Qəbələ Yeyinti Məhsulları İstehsalı" ASC-nin aqronomları tərəfindən yerlərdə əyani surətdə mütəmadi olaraq lazımi məsləhətlər verilir. Həmçinin, Cəmiyyət tərəfindən avans şəklində maddi dəstək də göstərilir. Tarixi ənənənin davamı olaraq salınmış fındıq bağları və fındıq tingçiliyi bu sahənin inkişaf etdirilməsində müstəsna əhəmiyyətə malikdir. Tingçilikdə yerli "Ata-baba" sortu ilə yanaşı, İtaliyadan gətirilmiş yeni məhsuldar fındıq sortları olan "Nokkiono" və "Romono" da əkilmişdir.

**Südçülüyə geniş diqqət ayrılır**

Açılışını ölkə Prezidenti İlham Əliyev cənablarının həyata keçirdiyi Gilan Kənd Təsərrüfatı Qrupunun Ağcabədi Süd Emalı Zavodunun günlük emal gücü 20-50 tondur. Zavoda süd Ağcabədi rayonunun kəndlərindən və yaxın bölgələrdən gətirilir. Zavodun satış şəbəkəsi, müasir tələblərə cavab verən laboratoriyası və digər xidməti bölmələri vardır. Zavodda süd və süd məhsullarının tərkibinin müəyyənləşdirilməsi və keyfiyyətinin ölçülməsi məqsədilə müasir standartlara cavab verən iki laboratoriya fəaliyyət göstərir. Hazır məhsullar laborator yoxlamadan keçdikdən sonra xüsusi anbarlara və soyuducu depoya yığılır. Zavodda təbii süddən bir neçə çeşid pendir hazırlanır. Bunların arasında Bəyaz pendir, Dağıstan pendiri, Bolqar pendiri, Sarı pendir, Saçaqlı pendir, Holland pendiri, Mozzarella və əlavə məhsul olaraq yağ, şor və xama da vardır. Holland pendirinin istehsalı avtomatlaşdırılmış qaydada həyata keçirilir. Bu məhsulların hər biri zavodda yaradılan ayrı-ayrı sexlərdə gigiyenik qaydalara uyğun olaraq hazırlanır. Hər bir məhsul laboratoriyalarda müvafiq yoxlamalardan keçir.
"Gilan Holding"-in 2008-ci ilin noyabr ayının 18-də işə başlayan Qəbələ süd emalı zavodunda isə ağ pendir, qatıq, meyvəli kəsmik, sadə kəsmik, kərə yağı, ayran, kefir, xama və dovğa kimi məhsullar istehsal olunur.

**Yüksək keyfiyyətli və tam təbii kartofdan istifadə olunur**

Ümumi sahəsi 20.000 m2 olan Qəbələ Kartof Emalı zavodunda 2 istehsal xətti quraşdırılıb: Frenchfries dondurulmuş kartof və kartof çipsi istehsalı. Yarımfabrikat dondurulmuş kartof istehsalı xətti Almaniyanın bu sahə üzrə ixtisaslaşmış istehsalçı EİMA şirkəti tərəfindən quraşdırılıb və istehsal gücü saatda 3 ton hazır məhsul təşkil edir. Çipsi istehsalı xətti Amerikanın Heat&Control və İSHİDA şirkətləri tərəfindən quraşdırılıb və istehsal gücü saatda 1 hazır məhsul istehsalı gücünə malikdir. Hər iki istehsal xətti tam avtomatlaşdırılmış sistem üzrə çalışır. Burada xammal ilkin soyuducu anbara yerləşdirilir. Yarımfabrikat kartof məhsulları üçün sahəsi 2000 m2 olan - 18 C temperatur rejimi ilə işləyən məhsul anbarı mövcuddur. Kartof məhsulları qablaşdırıldıqdan sonra xüsusi robot vasitəsilə paletlərə yığılır və avtomatik konveyer vasitəsilə hazır məhsul anbarına ötürülür. 7000 paletlik hazır məhsul anbarı avtomatik palet rəf sistemi ilə təchiz edilib. Müəssisədə 150 nəfər daimi işlə təmin olunub. "Chipsim" məhsulları müxtəlif ədviyyatlardan istifadə olunmaqla, yüksək keyfiyyətli və tam təbii kartofdan hazırlanır. Hər kəs ağız dadına uyğun olan çeşidlərdən istədiyini - paprika, şüyüdlü, klassik, pendirli, tomatlı, xama və soğanlı dadları seçə bilər. Fərqli qablaşdırmanın ölçüləri ilə istehlakçılara seçim azadlığı verən "Chipsim" 20 q, 75 q, 150 q həcmli bağlamalarda müştərilərə təqdim olunur. "Chipsim" məhsulları dünyanın inkişaf etmiş ölkələrinin – ABŞ və Yaponiyanın ən son texnologiyaları ilə təchiz edilmiş müəssisədə yerli, ekoloji təmiz xammaldan istifadə edilərək istehsal olunur.




**Şirkətin uğurları…**

2018-ci ilin əvvəlində "Gilan Holding"-in bir neçə müəssisəsində İSO 22000 beynəlxalq standartının tələblərinə uyğun Qida Təhlükəsizliyi Sisteminin tətbiqinə başlanılmışdır. Bununla bağlı müəssisədə Qida Təhlükəsizliyini təmin edən qruplar yaradılıb və onların nümayəndələri daxili və xarici təlimlərin fəal iştirakçıları olmuşdur. Rəhbərlik tərəfindən dəstəklənən bu prosesin nəticəsi olaraq iyul ayında 2 müəssisə, o cümlədən "Gilan Qəbələ Yeyinti Məhsulları" ASC (Fındıq emalı üzrə) və Ağdaş "GP Stock Feed" MMC (heyvandarlıq və quşçuluq yemləri üzrə) sertifikatlaşma prosesini uğurla tamamlayıb, İSO 22000:2005 sistemi üzrə sertifikatlar əldə edə bilib.
İdarəetmə üzrə təlimlərin Şirkətin strateji və əməliyyat aspektlərində bütün işçilər üçün mühüm rolu vardır. Onlar vəzifə tələbatlarına və gələcək karyera perspektivlərinə uyğun olaraq, həm şirkət daxilində, həm də tələbat olduğu halda xaricdə təlim və ixtisas artırma kursları keçməlidirlər. Ümumi təlim siyasətinin bir hissəsi kimi, müəssisə yüksək göstəriciləri olan işçiləri müəyyənləşdirərək, onlar üçün idarəetmə-rəhbərlik bacarığını inkişaf etdirmə proqramını həyata keçirə bilər.

**Mətanət Hüseynova**




# Azərbaycan-Rusiya münasibətləri keyfiyyətli və dinamik inkişaf mərhələsində

***Yaxın günlərdə ölkəmiz üçün böyük əhəmiyyət kəsb edən bir neçə mühüm hadisə baş verdi. Bu hadisələrlə əlaqədar olaraq sentyabrın 29-da AzTv kanalında yayımlanan "Bizim planet" verilişində Milli Məclisin İqtisadi siyasət, sənaye və saibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə və Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, professor Səməd Seyidovla birgə fikir mübadiləsi aparılmışdır. Verilişdə müzakirə olunan məsələləri oxucularımızın diqqətinə çatdırırıq.***

**Aparıcı (Rufiz Qonaqov):** Həftənin ən mühüm hadisələri - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mötəbər tədbirlərdə iştirakı, Rusiya Prezidenti cənab Vladimir Putinin Azərbaycana səfəri, MDB dövlət başçılarının növbəti görüşü və Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın İtaliyaya rəsmi səfəridir.

Rusiya Prezidenti Vladimir Putinin cənab İlham Əliyevlə görüşü artıq il ərzində dördüncü görüşdür və iki ölkə lideri birlikdə Azərbaycan-Rusiya regionlararası forumda iştirak ediblər ki, bu forum da çox mühüm əhəmiyyətə malikdir. Bununla bağlı həm Rusiyanın telekanalları, həm də dünya mətbuatı kifayət qədər geniş reportajlar hazırladı və biz də bu məsələyə veriliş boyu toxunacağıq.

İstərdim ilkin olaraq bu məsələyə, Ziyad müəllim, sizin münasibətinizi öyrənək.

**Ziyad Səmədzadə:** Əvvəla, bizi dəvət etdiyiniz üçün təşəkkür edirəm. Həqiqətən, Azərbaycan-Rusiya münasibətləri dinamik, uğurlu və keyfiyyətlə inkişaf edir. Azərbaycan müstəqillik əldə etdikdən sonra müstəqilliyinin ilk illərində Azərbaycan-Rusiya münasibətləri o qədər dəsəmimi deyildi və Rusiyanın müəyyən dairələri Azərbaycanın müstəqilliyi, xarici şirkətlərin Azərbaycanın neft-qaz resurslarından istifadəsi işinə cəlb edilməsi ilə heç cür barışmaq istəmirdilər. Ulu öndər Heydər Əliyevin böyük müdrikliyi nəticəsində Azərbaycan-Rusiya münasibətlərinin tənzimlənməsində çox böyük uğurlar əldə olundu. Heydər Əliyevin Rusiyaya səfəri, Yeltsin və digər rəhbərlərlə görüşü müəyyən məsələlərə aydınlıq gətirdi. Hətta xatırlayıram ki, 94-cü ildə "Əsrin müqaviləsi" imzalandıqdan qısa müddət sonra Rusiya hökuməti rəsmi bəyanat verdi ki, biz "Əsrin müqaviləsi" ilə əlaqədar bağlanmış müqavilələri bəyənirik, yəni razılaşırıq. Eyni zamanda, cənab İlham Əliyev prezident seçiləndən sonra Azərbaycan-Rusiya münasibətlərinin yeni mərhələsi başlandı. Bu gün artıq Azərbaycan-Rusiya münasibətləri strateji əməkdaşlıq forması almışdır, konkret iqtisadi sahədə, həqiqətən, Azərbaycan-Rusiya münasibətləri hər bir ölkənin milli maraqlarına cavab verir. Vladimir Putin də, cənab İlham Əliyev də çıxışlarında dəfələrlə qeyd edirlər ki, bu iki ölkə arasında iqtisadi münasibətlərdə maraqların tapılması mühüm əhəmiyyət kəsb edir. Bu gün artıq balanslı münasibətlər formalaşıb. Azərbaycan-Rusiya forumuna gəldikdə isə bu, Azərbaycanın, eləcə də Rusiyanın iqtisadi tarixində ən möhtəşəm forum kimi yadda qalacaq. Çünki forumda müzakirə olunan məsələlər, demək olar ki, Azərbaycanın iqtisadi həyatının bütün sahələrini əhatə edib. Yeddi panel iclası keçirilib. Bu panel iclaslarda hər bir ölkənin iqtisadi maraqlarına cavab verən məsələlər müzakirə olunub: yanacaq energetikası, sənaye, nəqliyyat kompleksi, turizm, aqrar sektor, logistika, kənd təsərrüfatı, humanitar sahə. Yəni, bu sahələrdə Azərbaycan çox mühüm layihələr həyata keçirir.

Azərbaycan-Rusiya münasibətlərində bu gün aparıcı mövqelərdən biri nəqliyyat məsələsidir. Bizi istəməyən qüvvələrin ağlına gələ bilməzdi ki, AzərbaycanRusiya ilə Şimal-Cənub dəhlizini işə salacaqdır, Azərbaycan nefti Bakı-Novorossiysk xətti ilə daima hərəkət edəcəkdir, müstəqillikdən sonra Rusiya Azərbaycan iqtisadiyyatına 1 milyard yarım dollar vəsait qoyacaqdır. Təkcə Lukoyl Azərbaycanın neft sənayesinə 4 milyard dollara qədər vəsait qoyub. Həmçinin, nəqliyyat sahəsində əməkdaşlığımız genişlənir: Gəncə Avtomobil Zavodunda yeni maşınların istehsalı, Sumqayıt polimer zavodu layihəsi, Pirallahıda texnoparkın yaradılmasında Rusiyanın iştirakı, eyni zamanda, azərbaycanlı biznesmenlərin Rusiyanın müxtəlif regionlarında sahibkarlıq fəaliyyəti və s. Hesablamalar göstərir ki, yaxın vaxtlarda əmtəə dövriyyəsi iki dövlət arasında əhəmiyyətli dərəcədə artacaqdır, idxal-ixrac əməliyyatlarında nisbət Rusiyanın xeyirinədir. Bizim apardığımız hesablamalar isə göstərir ki, yaxın illərdə Azərbaycan Respublikasından Rusiyaya ixrac edilən məhsulların həcmi xeyli artacaqdır ki, bu da yaranmış uyğunsuzluğu aradan qaldıracaqdır. Əsas məsələ ondadır ki, Azərbaycan ilə Rusiya arasındakı qarşılıqlı faydalı əməkdaşlıq regionda sülhə, təhlükəsizliyə, bütövlükdə, ölkələrimizin iqtisadi, sosial tərəqqisinə xidmət edir. Açıq-aşkar görünür ki, Prezident İlham Əliyevin müdrik siyasəti, qətiyyəti, Rusiyanın dövlət başçısı Vladimir Putinlə sağlam dostluq münasibətləri öz bəhrəsini verir.

**Aparıcı:** Tamamilə haqlısınız, Ziyad müəllim. Siz müstəqil Azərbaycan və Rusiya münasibətlərinə toxundunuz və ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdən başlayaraq Rusiya-Azərbaycan münasibətlərinin yaxşılaşdırılması, istiləşməsi məsələlərini qeyd etdiniz. Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirir. Azərbaycanın diplomatik əlaqələri çox yüksələn xətt üzrə inkişaf edir.

Bəs, bütövlükdə, Rusiya-Azərbaycan münasibətlərini hal-hazırda necə qiymətləndirirsiniz və perspektivdə bundan sonra nə gözlənilir?

**Səməd Seyidov:** Biz çox zəngin bir həftə yaşadıq. Ümumiyyətlə, Azərbaycanın beynəlxalq münasibətləri çox yüksək səviyyədə özünü göstərməkdədir. Bu, heç də təsadüfi deyil. Bilirsiniz, xarici siyasət daxili siyasətin davamıdır və Ziyad müəllim burada çox gözəl qeyd etdi ki, Azərbaycanın bir məmləkət, bir dövlət kimi uğurları, dünyada öz yerini tapması, beynəlxalq münasibətlər sistemində öz imzasının mövcud olması, dünyaya təsir imkanlarının artırılması və regionda geniş şəkildə aparıcı bir rol oynaması, təbii ki, Azərbaycanın daxildəki inkişafı ilə bağlıdır. Bu da Azərbaycandan kənara nüfuz etmək, təsir göstərmək imkanını artırmışdır. Bu baxımdan beynəlxalq münasibətlərin inkişafı daxili inkişafın məntiqi nəticəsidir. Azərbaycan artıq təsir göstərmək imkanına malik olan ölkələr sırasındadır. Beynəlxalq münasibətlər fəlsəfəsində "sən" təsir göstərmək imkanını o vaxt əldə edirsən ki, daxildə öz ölkəni inkişaf etdirə bilirsən. Bu nöqteyi-nəzərdən bu gün Azərbaycanın beynəlxalq münasibətləri həm regionda, həm də dünyada əhəmiyyət kəsb edən münasibətlərdir. Regionun ən böyük dövləti olan Rusiya Federasiyası ilə Azərbaycan arasında əlaqələrin bu şəkildə inkişaf etməsi ölkəmizin beynəlxalq münasibətlərə təsir imkanlarını artırır.

Mən xatırlaya bilmirəm ki, qısa bir müddətdə Rusiya Federasiyasının rəhbəri hansısa bir ölkəyə dörd dəfə səfər etsin. Azərbaycan öz əhəmiyyəti, vacibliyi, davranışı, məntiqi, apardığı siyasətlə Rusiya Federasiyasının yüksək dərəcədə diqqətini cəlb edir. Beynəlxalq münasibətlərdə diqqətdən diqqətə fərq var: elə diqqət ola bilər ki, o dövlətin içərisində hansısa destruktiv tendensiyalara xidmət etsin. Siyasi nöqteyi-nəzərdən Azərbaycan-Rusiya münasibətlərinin iqtisadi, siyasi, humanitar və digər sahələrdə inkişafı başqa dövlətlər üçün istiqamətverici xarakter daşıyır. Biz həmişə deyirik ki, regionda Azərbaycan olmadan hansısa bir layihəni həyata keçirmək mümkün deyil. Doğrudan da, belədir. Ancaq Rusiya da geniş şəkildə regionda böyük bir gücə, təsirə malik olan dövlətdir. İndi siz təsəvvür edin, iki güc eyni istiqamətdə eyni fikirləri, eyni məsələləri ortaya qoyub, həll edir. Kimsə bunun qarşısında çətin dayana bilər. Bir neçə ay bundan əvvəl Xəzər dənizinin statusunun müəyyən olunması, Soçidə Azərbaycan-Rusiya arasında imzalanmış, bütün sahələri əks etdirən müqavilələr, sazişlər, eyni zamanda, regionların bir-biri ilə əlaqəsini genişləndirən görüşlər... Bu, onu göstərir ki, Azərbaycanın xarici siyasəti və xüsusilə, Rusiya ilə əlaqələri regiona artıq nüfuz edib və regionun siyasi xəritəsini formalaşdıran bir münasibətə çevrilib.




**Aparıcı:** Tamamilə elədir, Səməd müəllim. Azərbaycanın uğurlarından biri də, sözsüz ki, bu həftə Azərspeys-2 peykinin orbitə buraxılması oldu. Qeyd etmək lazımdır ki, son beş il ərzində orbitə artıq üçüncü peyk çıxaran Azərbaycan dünyanın kosmik klubunun üzvünə çevrilmiş və dünyanın, eyni zamanda, kosmik sənayesində də öz mövqelərini möhkəmləndirmişdir. Əlbəttə, biz bilirik ki, bununla bağlı cənab Prezident İlham Əliyevin xalqa təbriki oldu və həmin təbriki biz çox maraqla və diqqətlə izlədik, eyni zamanda, Azərspeys-2 peykinin orbitə çıxarılması Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə böyük bir töhfə idi.

Ziyad müəllim, sizin həm bir komitə sədri, eyni zamanda, bir akademik olaraq bu hadisə ilə bağlı fikirləriniz çox maraqlıdır.

**Ziyad Səmədzadə:** Heç şübhəsiz ki, hər bir azərbaycanlı üçün bu, tarixi hadisədir. Siz bu sualı çox yerində verdiniz. Mən 1976-cı ildə ulu öndər Heydər Əliyevin kosmik tədqiqatlar sahəsində dünyada tanınan akademik R.Saqdeyevlə Bakıdakı görüşünü xatırlayıram. Akademik Saqdeyev Heydər Əliyevə məktub yazır və məktubda Azərbaycanda kosmik tədqiqatlar sahəsində işlərin genişləndirilməsini xahiş edir. Heydər Əliyev kosmos sahəsində tədqiqat aparan alimləri, başda R.Saqdeyev olmaqla Bakıya dəvət edir və Azərbaycanda yaradılmış Kosmik Tədqiqatlar İnstitutu ilə elmi əməkdaşlığın genişləndirilməsi ilə bağlı tövsiyə və təkliflərini bildirir. Qeyd edək ki, o vaxtlar bu instituta görkəmli alim Tofiq İsmayılovbaşçılıq edirdi. Bu sahədə Azərbaycanda güclü elmi baza yaranırdı. Kosmosa uçuşla bağlı SSRİ üzrə Dövlət Komissiyasının sədri Kərim Kərimov kimi böyük alimimiz, dövlət xadimimiz vardı... Bir sözlə, hələ ötən əsrin 70-ci illərinin ortalarından Azərbaycanda vacib kosmik tədqiqatlar aparılırdı. Ona görə də kosmosa Azərbaycanın peyk buraxmasının köklü əsasları var.

Dinamik inkişaf müasir İKT-nin tətbiqinə diqqətin artırılması, Azərbaycanın kosmik tədqiqatlar sahəsində qabaqcıl ölkələrdən birinə çevrilməsi üçün əlverişli imkanlar yaratmışdır. Biz fərəhlə deyirik ki, respublikamız Kosmik Klubun üzvüdür. Bu, heç şübhəsiz ki, hər bir ölkənin ən vacib uğurlarından biri sayıla bilər. İnformasiya texnologiyalarının sürətli inkişafı, innovasiyalı iqtisadiyyatın yaranması Azərbaycan iqtisadiyyatının gələcəkdə prioritet istiqamətlərindən biri olmalıdır. Hələlik statistik külliyyatlarda İKT barədə kifayət qədər dolğun məlumatlar verilmir. Amma, heç şübhəsiz, bu boşluq gələcəkdə aradan qaldırılacaq. İnformasiya texnologiyaları sahəsində yaradılan məhsul və xidmətlərin xüsusi çəkisi ölkənin ÜDM-ində ən azı 4-5 faizə çatacaq. Azərbaycanın peyki dünyanı seyr edəcək, tədqiqatlar aparacaq, Azərbaycana gəlir gətirəcəkdir. Peyk vasitəsilə əldə olunan informasiyalar təbii resurslarımızdan daha səmərəli istifadə etmək, ekoloji sahədə yaranmış problemləri həll etmək imkanlarını xeyli genişləndirəcək. Bütövlükdə, mən bunu çox böyük qələbə hesab edirəm. Bu, eyni zamanda,dünyaya bir müsbət mesajdır. Dünyada o qədər çox ölkə yoxdur ki, onlar peyki kosmosa buraxsınlar. Tam məsuliyyətlə demək istərdim ki,bu hadisə Azərbaycan xalqının, Azərbaycan dövlətinin uğurudur, Azərbaycan cəmiyyətində intellektual mülkiyyətin, əqli mülkiyyətin inkişaf etdiyini xarakterizə edən bir göstəricidir.

**Səməd Seyidov:** Ziyad müəllim tamamilə haqlıdır və təbii iqtisadi nöqteyi-nəzərdən peykin artıq mövcudluğu Azərbaycan üçün böyük dividendlər gətirəcəkdir. Bu dividendlər içərisində siyasi dividendlər də mövcuddur. Ziyad müəllim qeyd etdiki, biz artıq dünyanın ən aparıcı ölkələrinin üzv olduğu kluba daxil olmuşuq. O, sadəcə bir neçə ölkədən ibarət yığıncaq deyil, dünyanın texnoloji nöqteyi-nəzərdən ən inkişaf etmiş ölkələridir. Bu, özü-özlüyündə ona dəlalət edir ki, Azərbaycanda iqtisadiyyatın inkişafı, dövlətin güclənməsi ilə yanaşı, müasir elmin inkişafı da çox yüksək səviyyədə özünü büruzə verir. Bu isə müasir dünyada çox böyük əhəmiyyət kəsb edən məsələdir. Bu gün regionda, ümumiyyətlə, dünyada əlaqələrin, beynəlxalq münasibətlərin qurulması elmi əsaslarla, araşdırmalarla formalaşır. Bax, belə bir yüksək səviyyəli texnologiyaya malik olan Azərbaycan dünyaya bəyan edir ki, biz artıq sadəcə iqtisadi cəhətdən inkişaf etmirik, biz müasir dünyanın tərkib hissəsiyik. Müasir dünyada gedən prosesləri nəinki qəbul edir, həm də Azərbaycanda onu tətbiq edirik. Ona görə də cənab prezident xalqa müraciət etdi. Siz bilirsiniz ki, cənab prezidentin xalqa müraciəti nadir hallarda baş verir, bu, xüsusi hadisə kimi qiymətləndirilməlidir və dərk etmək lazımdır ki, Azərbaycanda tamamilə yeni bir mərhələ - müasirlik mərhələsi başlayır və bu müasirlik mərhələsindən söhbət edərək, bir məsələni də qeyd etmək lazımdır. Yəqin ki, seyr etdiniz. Rusiya prezidenti həmin forumda bu müasirliyə işarə verdi, qeyd etdi ki, mən belə professionallığı heç yerdə görməmişəm, lakin Azərbaycanda gördüm. Psixologiyada deyirlər, istedad heç vaxt birtərəfli olmur. İstedad varsa, o çoxtərəflidir. Azərbaycan bu nöqteyi-nəzərdən, sözün əsl mənasında, istedadlı siyasət aparır. Onun istedadı iqtisadiyyatın yüksəlişində, eyni zamanda, Xəzər dənizinin statusu ilə bağlı nailiyyətlərin əldə olunmasında özünü göstərir. Artıq Azərbaycan regionda aparıcı dövlətə çevrilir.

**Ziyad Səmədzadə:** Bu yaxınlarda AzTv-də "Azərkosmos"la əlaqədar veriliş efirə getdi, burada Aviasiya Akademiyasının yüksək səviyyəli kadrlar hazırlamasından, dünya miqyasında uğurlarından danışılırdı. Bizim Aviasiya Akademiyasının beynəlxalq aləmdə nüfuzu çox yüksəkdir. Bu peykin arxasında böyük elmi potensial dayanır. Səməd müəllimin dediyi kimi, dünyanın ən aparıcı ölkələri Kosmos Klubunun üzvüdür. Heydər Əliyevölkənin rəhbəri olduğu illərdə - ötən əsrin 70-80-ci illərində Azərbaycanda kosmik tədqiqatların aparılmasının əsası qoyulub. Bizim soydaşlarımız dünyanın müxtəlif ölkələrində bu istiqamətlərdə indi də tədqiqatlar aparırlar.

**Aparıcı:** Səməd müəllim, bu həftə Rusiya Prezidentinin Azərbaycana səfərindən sonra Düşənbədə MDB dövlət başçılarının növbəti görüşü keçirildi və Azərbaycan Prezidenti cənab İlham Əliyev də bu görüşdə iştirak etdi. Eyni zamanda, orada Azərbaycan prezidenti və Ermənistanın hazırkı Baş naziri arasında müəyyən söhbətlər oldu. Bu, bir daha onu göstərdi ki, danışıqlar prosesini pozmaq cəhdləri nəticəsiz qaldı. Mən istərdim ki, bütün bu məsələlərə münasibətinizi bildirəsiniz.

**Səməd Seyidov:** Doğrudan da, MDB ölkələrinin sammitinin keçirilməsi özü-özlüyündə çox vacib bir hadisədir. Ona görə ki həm region, həm dövlətlərarası münasibətlərin inkişafı, həm də yeni sazişlərin bağlanması üçün bu, böyük əhəmiyyət kəsb edir. Elə həmin MDB ölkələrinin sammitində kosmik məsələ müzakirə olundu. Çünki hazırda bu, gündəmdə olan məsələdir. Ancaq MDB ölkələrinə daxil olan ölkələrin heç də hamısı kosmik klubun üzvü deyillər. Cəmi üç ölkə: Azərbaycan, Rusiya və Belarus bura daxildir.

Bu istiqamətdə Azərbaycanda yüksək səviyyədə işlər aparılır, ancaq bununla yanaşı, MDB ölkələri sammiti, qəribə səslənsə də, Azərbaycanla zənginləşir. Rusiya və Azərbaycanın faktiki olaraq Düşənbəyə bir yerdə getməsi ona dəlalət edir ki, bu təşkilatın güclənməsi ölkələr arasında münasibətlərin, Azərbaycan-Rusiya münasibətlərinin çox yüksək səviyyədə özünü büruzə verməsi ilə də bağlıdır. Bu gün Azərbaycan beynəlxalq münasibətlərdə elə bir zirvədədir ki, MDB ölkələrinin təşkilat kimi inkişafına xidmət edir. Orada müzakirə olunan nəqliyyat məsələsində, enerji məsələsində, kosmik məsələlərdə, terrorizmə qarşı mübarizədə Azərbaycan aparıcı rol oynayır. Azərbaycan yüksəldikcəüzv olduğu təşkilatları da inkişaf etdirir.

Bu, yalnız MDB dövlətlərinə aid deyil, Avropa Birliyi Azərbaycanla, onun enerji təhlükəsizliyi məsələləri ilə zənginləşir. Birləşmiş Millətlər Təşkilatını - dünyanın ən aparıcı təşkilatını belə, qeyri-daimi üzv olaraq Azərbaycan zənginləşdirdi. Həmçinin, Qoşulmamaq Hərəkatından, yaxud İslam konfransından söhbət açaq, hansı təşkilat olursa olsun, Azərbaycan artıq sıravi bir iştirakçı yox, təşkilatları formalaşdıran, onun gündəliyini müəyyən edən və əhəmiyyətli şəkildə təsir göstərən bir ölkədir. O ki qaldı sizin sualınızın ikinci hissəsi - Azərbaycan Respublikası Prezidentinin və Paşinyanın görüşü... Azərbaycan Respublikası Prezidentinin Dağlıq Qarabağla bağlı siyasəti tamamilə düz istiqamətdədir. Niyə? Ona görə ki Azərbaycanın apardığı siyasət yalnız Azərbaycanın siyasəti deyil, bu, beynəlxalq qanun çərçivəsində aparılan siyasətdir. Azərbaycan həmişə bəyan edib ki, onun marağı beynəlxalq qanunu bu bölgəyə, bu regiona gətirməkdir. Paşinyanın cəhdi isə bu beynəlxalq qanundan kənara çıxmaq, yaxud hansısa istiqamətdə başqa fikir söyləməkdir. Mən düşünürəm ki, bu, müsbət hadisədir. Ona görə ki Azərbaycanın marağı beynəlxalq qanun çərçivəsində bu münaqişənin həll olunmasıdır və beynəlxalq qanunvericiliyin bu istiqamətdə tətbiq olunması regionda sabitliyə, inkişafa dəlalət edir. Ancaq bununla yanaşı, həmin söhbətin öncəsi mütləq təhlil olunmalıdır. Çünki Azərbaycan-Rusiya münasibətləri, Azərbaycanın regionda böyük nüfuza malik olması, təbii ki, bu dəyərlərdən, istiqamətlərdən, beynəlxalq qanundan kənar qalan ölkələri bu davranışı, formanı qəbul etməyə vadar edir.

**Aparıcı:** Əlbəttə ki, bu, eyni zamanda, Ermənistan tərəfindən danışıqlar prosesinin formatının dəyişdirilməsinə son qoyulması demək idi və bir daha təsdiq olundu ki, məhz Ermənistan münaqişə tərəfidir və danışıqlar da onunla davam etdirilə bilər.

**Ziyad Səmədzadə:** Mən Səməd müəllimin fikirlərini davam etdirmək istəyirəm. MDB bir regional qurumdur, uzun illər müəyyən dairələr bu quruma qarşı çıxsalar da, öz məqsədlərinə nail ola bilməyiblər. Çünki MDB bir qurum kimi, kifayət qədər gücə malikdir, yəni sanballı bir təşkilatdır. MDB-nin fəaliyyətində bir müddət sakitlik və qüsurlar, həttaetiraf edək ki, fəaliyyətsizlik də olub. Amma son vaxtlar MDB-nin həyata keçirdiyi tədbirlər, təşkil etdiyi görüşlər, tədbirlərdə bu aktual məsələlərin müzakirəsi birmənalı şəkildə sübut edir ki, MDB getdikcə regional inkişafda, regional problemlərin həllində böyük rol oynayacaqdır.

Azərbaycanın MDB-də iştirakının, fəaliyyətinin artmasını müəyyən edən bir neçə şərt vardır ki, onlardan bir neçəsini Səməd müəllim qeyd etdi. Elə götürək Xəzərin statusunun qəbul edilməsi məsələsini. Bu, heç şübhəsiz ki, Xəzər barədə konvensiyaya imza atan dövlətlərin – Rusiya, Qazaxıstan, Türkmənistan, Azərbaycan və İranın inkişafına güclü təkan verəcəkdir. Bizim Xəzər dənizi ətrafında çox güclü iqtisadi potensialımız var və bu iqtisadi potensial əhəmiyyətli dərəcədə nəqliyyat dəhlizinin yaxın gələcəkdə inkişafı ilə əlaqədar daha da güclənəcəkdir. Bakı Dəniz Limanının, Bakı-Tbilisi-Qarsın istifadəyə verilməsi, Ələtdə Xüsusi İqtisadi Zonanın yaradılması, Aktauda Logistika Mərkəzinin tikilməsi, Şimal-Cənub dəhlizinin işə salınması və s. layihələr, bütövlükdə, Azərbaycan iqtisadiyyatının inkişafını sürətləndirən amillərdir.Sadalanan amillər Xəzəryanı ölkələrin iqtisadi tərəqqisinə, sülhə, sabitliyə böyük dəstək olacaqdır. Obyektiv və subyektiv səbəblərdən bu gün MDB məkanı ilə bizim ticarət dövriyyəmiz o qədər də yüksək deyildir. Amma inkişaf imkanları çox böyükdür.

MDB məkanı ölkələrilə biz energetika sahəsində çox intensiv əməkdaşlıq edirik. Ötən əsrin 70-ci illərində güclü energetika bazası formalaşmışdı. Son on beş ildə də bu istiqamətdə böyük işlər görülmüşdür. Biz özümüzü elektrik enerjisi ilə təmin edirik və ixrac edirik. Amma bu enerji sisteminin qurulması, modernləşməsi, təhlükəsizliyin təmin edilməsi, heç şübhəsiz ki, qonşu ölkələrlə, xüsusən Rusiya, Belarus və Qazaxıstanla əməkdaşlığın daha da intensivləşməsini tələb edir. MDB-yə daxil olan Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Azərbaycan türkdilli ölkələrdir. Digər vacib bir məsələ. Elə bu yaxınlarda Qırğızıstanda MDB ölkələrinə daxil olan beş ölkənin, eyni zamanda, Türkiyənin iştirakı ilə türkdilli dövlətlərin toplantısı keçirildi. MDB ölkələrinin birini çıxmaq şərtilə hamısı ayrı-ayrılıqda Azərbaycanın ərazi bütövlüyünü qəbul edib və çıxışlarında Azərbaycanın Qarabağ probleminin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllini vurğulayıblar.

Bir sözlə, MDB Azərbaycan üçün böyük bir platformadır, MDB-nin gücünün, nüfuzunun artması imkanlarından biz səmərəli istifadə etməliyik.

Bu gün Azərbaycanın MDB-nin üzvü kimi fəaliyyəti, hər bir ölkə ilə qarşılıqlı əməkdaşlığı bu ölkələrdə yaşayan soydaşlarımız üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycan-Rusiya forumunda çıxış edən Arxangelsk, Stavropol vilayətlərinin qubernatorlarıöz çıxışlarında bildirdilər ki, azərbaycanlı soydaşlarımız bizim iqtisadi, ictimai həyatımızda fəal iştirak edir, sahibkarlıq fəaliyyəti ilə məşğul olurlar. Bir sözlə, mənim bir iqtisadçı kimi fikrim ondan ibarətdir ki, Azərbaycanın MDB ölkələri, MDB qurumu ilə əlaqələrinin genişlənməsi MDB-nin özünün gücünü, nüfuzunu artırmağa xidmət edir. Çünki Azərbaycan son on beş, iyirmi il ərzində üzləşdiyi çətinlikləri, maneələri uğurla dəf edib. Hamımız yaxşı bilirik ki, Azərbaycanın neft strategiyasına, "Əsrin müqaviləsi"nə maneələr var idi. Amma Azərbaycan dövləti bu təzyiqlərə dözdü, müstəqilliyini qoruyub saxladı. Azərbaycanın hazırkı nüfuzu Heydər Əliyev tərəfindən müəyyən edilmiş Azərbaycanın inkişaf modelinin bu gün də cənab prezident tərəfindən çoxtəmkinlə, inamla, çox yüksək peşəkarlıqla davam etdirilməsinin nəticəsidir.

**Aparıcı:** Bu həftə, həmçinin Bakıda növbəti Müdafiə Sənayesi sərgisi keçirildi və Azərbaycan Prezidenti cənab İlham Əliyev bu sərgidə iştirak etdi. Müharibə aparan, ərazisi işğal olunmuş bir ölkə üçün müdafiə qabiliyyətinin gücləndirilməsi, möhkəmləndirilməsi çox vacib məsələlərdən biridir. Ziyad müəllim, bu məsələyə də münasibət bildirərdiniz.

**Ziyad Səmədzadə:** Heç şübhəsiz ki, Azərbaycanın müasir müdafiə sənayesinin potensialı bizim çox böyük nailiyyətimizdir. Cənab prezident çıxışlarının birində demişdir ki, bizim kifayət qədər iqtisadi və siyasi gücümüz var. Ordumuz dünyada güclü ordusu ilə fərqlənən 50 ölkə içərisində özünə layiqli yer tutur. Nəyin hesabına biz buna nail olmuşuq? Düşünülmüş dövlət siyasəti, onun tərkib hissəsi hesab edilən iqtisadi siyasətimiz hesabına. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ən müqəddəs vəzifədir. İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir və ölkəmizin iqtisadi potensialında ordumuzun ehtiyaclarının yüksək səviyyədə təmin edilməsi vacib məsələ kimi qoyulur və dövlət başçısı İlham Əliyev güclü müdafiə sənayesi bazasının yaradılması üçün bütün imkanlardan istifadə edir.

Azərbaycanın sənaye müəssisələrində çox müasir silahlar istehsal olunur. Artıq Azərbaycanda istehsal olunan silahların bir hissəsi də xaricə gedir. Nə qədər ki, Qarabağ torpağımız azad olunmayıb, bizim güclü müdafiə sənayemiz olmalıdır və bu, eyni zamanda, yüksək peşəkarların hazırlanması deməkdir.

Müdafiə sənayesinin müasirləşməsi insan kapitalına, yüksək professionallığı ilə seçilən işçilərə tələbi artırır. Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, qonşu ölkələrlə bu sahədə əməkdaşlığın genişləndirilməsi vacib məsələlərdən biri kimi peşə-texniki təhsilin də təkmilləşməsini tələb edir. Rusiya ilə əməkdaşlığın genişlənməsi, orada yaradılan müəssisələr, onların iştirakı ilə ölkəmizdə həyata keçirilən layihələr tələb edir ki, müvafiq ixtisaslı kadrlarımız olsun.

Bütövlükdə, mən hesab edirəm ki, cənab prezidentin ölkənin müdafiə sənayesinin inkişafı istiqamətində atdığı addım düzgündür. Ölkənin müdafiə sənayesinin dinamik, keyfiyyətli inkişafı Azərbaycan xalqının milli maraqlarına cavab verən, onun təhlükəsizliyinəxidmət edən bir siyasətdir və bu siyasət bundan sonra da uğurla davam edəcəkdir.

**Aparıcı:** Ziyad müəllim, sözsüz ki, elə bu ay ərzində Türkiyə və Azərbaycan prezidentlərinin birgə iştirakı ilə Bakının azad olunmasının 100 illiyi münasibətilə Bakıda keçirilən möhtəşəm paradda məhz Azərbaycanın müdafiə qabiliyyətinin il ərzində artıq ikinci dəfə nümayiş etdirilməsi, həqiqətən, böyük bayram idi.

Sözsüz ki, biz Azərbaycan müstəqil olduqdan sonra bütün ölkələrlə, Avropa ilə, dünya ilə ikitərəfli, üçtərəfli, dördtərəfli və ən müxtəlif formatlarda əməkdaşlığa başladıq. Biz bilirik ki, qısa müddət ərzində İtaliya prezidentinin Azərbaycana səfəri oldu və bu səfər çərçivəsində çox mühüm hadisələr baş verdi, Azərbaycan Respublikasının birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın İtaliyaya səfəri oldu və eyni zamanda, bu səfər çərçivəsində həm Roma Papası, həm də İtaliya prezidenti, işgüzar dairələrlə mühüm görüşlər oldu. Səməd müəllim, mən istərdim ki, birinci vitse-prezidentin bu görüşləri haqqında sizin fikirlərinizi alaq.

**Səməd Seyidov:** Doğrudan da, Azərbaycanın xarici siyasəti çoxşaxəlidir. Bütün regionları, bütün ölkələri əhatə edən bir siyasətdir və məhz Azərbaycanın xarici siyasətinin, ümumiyyətlə, siyasətinin uğuru ondan ibarətdir ki, əsaslandırılmış siyasət aparılır. Bu nöqteyi-nəzərdən hörmətli Mehriban xanımın, Azərbaycan Respublikasının birinci vitse-prezidentinin İtaliyaya səfəri xüsusi əhəmiyyət kəsb edir.

Bu gün regionda Azərbaycanın nüfuzu yüksək səviyyədə özünü göstərməkdədir və Azərbaycan həm Rusiya, həm də regionda olan qonşu ölkələrlə münasibətlər qurmaqla yanaşı, Avropa ölkələri ilə də münasibətləri ən yüksək səviyyədə təşkil edir. Onların içərisində İtaliya bizim üçün çox əhəmiyyətli və vacib partnyordur. İtaliya iqtisadi nöqteyi-nəzərdən Avropa ölkələri içərisində bizim üçün ona görə vacibdir ki, TAP layihəsində əhəmiyyətli yer tutur və mədəni, humanitar əlaqələr baxımından bizə təsir imkanları böyükdür. Ona görə də Mehriban xanımın İtaliyaya səfəri çox önəmlidir və çoxşaxəli bir səfər idi. Səfər çərçivəsində Mehriban xanım Müqəddəs Sebastian katakombalarının Heydər Əliyev Fondu tərəfindən bərpası ilə əlaqədar işləri izlədi, açılışında iştirak etdi. Eyni zamanda, Azərbaycan Demokratik Respublikasının 100 illiyi ilə bağlı tədbirlərdə iştirak etdi. Bu səfər regionda əlaqələrimizin genişləndirilməsi çərçivəsində baş verən bir səfərdir. Yəni, bu, ona dəlalət edir ki, bizim apardığımız siyasət heç vaxt birtərəfli ola bilməz, Azərbaycan maraqlarını tam şəkildə özündə ehtiva edir və cənab prezident də bu haqda dəfələrlə danışıb. Mən bu nöqteyi-nəzərdən Mehriban xanımın, Azərbaycan Respublikasının birinci vitse-prezidentinin səfərini həddindən artıq yüksək qiymətləndirirəm. Ona görə ki bu gün biz cənab prezidentin apardığı siyasətdə çox güclü və məntiqli, iradəli, içində çox böyük mədəniyyət ehtiva edənbir siyasət görürük. Mehriban xanımın həm parlamentdə, həm senatda apardığı danışıqlar, ümumiyyətlə, görüşlərin keçirilməsi maneələri tamamilə puç etdi. Əminəm ki, bundan sonra İtaliya-Azərbaycan siyasəti necə ki, inkişaf edib, elə də davam edəcək. Azərbaycanla əlaqələr qurmaq həm Azərbaycan, həm İtaliya, həm də Avropanın maraqları çərçivəsindədir.

**Aparıcı:** Sözsüz ki, İtaliya prezidenti Azərbaycana səfər edərkən necə maraq doğurmuşdusa, Azərbaycanın vitse-prezidenti Mehriban xanımın da İtaliyaya səfəri o qədər maraqlı oldu. İstərdim ki, bu məqama da münasibət bildirəsiniz.

**Ziyad Səmədzadə:** Əvvəla, Mehriban xanımın İtaliya səfəri haqqında Səməd müəllim kifayət qədər məzmunlu fikirlər söylədi. Həqiqətən də, Azərbaycan Respublikasının vitse-prezidenti Mehriban xanımın İtaliyaya səfəri dünyəvi xarakter aldı, çünki səfər zamanı müzakirə olunan məsələlər, keçirilən görüşlər kifayət qədər sanballı və irimiqyaslı idi. Heç şübhəsiz ki, bu səfər Azərbaycan-İtaliya münasibətlərinin bundan sonra da dinamik və keyfiyyətlə inkişafına öz müsbət təsirini göstərəcəkdir.



Son 20 il ərzində Azərbaycanda keçirilən beynəlxalq tədbirlərin sayı-hesabı yoxdur. Onu da unutmamlıyıq ki, hər belə tədbirin arxasında böyük hazırlıq, təşkilatçılıq işləri, böyük məsuliyyət durur. Bu baxımdan Azərbaycanın iqtisadi qüdrətinin artmasına, müstəqilliyimizin qorunmasına xidmət edən "Əsrin müqaviləsi" ilə əlaqədar keçirilmiş tədbirləri qeyd etmək kifayətdir.

Hələ 1998-ci ildəBakıda Qədim İpək yolunun bərpası ilə əlaqədar dünyanın aparıcı ölkələrinin liderləri, yüksək rütbəli dövlət xadimləri, nüfuzlu beynəlxalq təşkilatlarının iştirakı ilə Bakı Sammiti keçirildi. Sammit işini bitirdikdən sonra Heydər Əliyev hökumət, Prezident Aparatının məsul işçiləri, icra strukturlarının rəhbərlərinin iştirakı ilə konfransın nəticələrinə həsr olunmuş tədbir keçirdi, o tədbirdə çox vacib sənədlər imzalandı. O qeyd etmişdi ki, Azərbaycan tarixində hələ belə yüksək səviyyəli tədbir keçirilməmişdi. Heydər Əliyev demişdi ki, Vətənini, millətini sevən hər bir azərbaycanlı bu tədbirin uğurla başa çatmasından qürur duymalıdır. O dövrdən 20 il keçib. Azərbaycan daha da güclənib, beynəlxalq aləmdə nüfuzu artıb. Ölkəmizdə dövlət başçısı İlham Əliyevin bilavasitə dəstəyi ilə irimiqyaslı tədbirlərə imza atılıb. Bütün bunlar ona görə lazımdır ki, Azərbaycan daha sürətlə tərəqqi etsin, onun haqq səsi dünyaya yayılsın, ölkəmizin daha keyfiyyətli inkişafı təmin edilsin.

Bakı, həqiqətən, gözəlləşib, dünyanın ən müasir şəhərlərindən birinə çevrilib və burada tikilən binalar, salınan parklar, sosial obyektlər, abadlaşan küçələr, istirahət zonaları Bakıya gələnləri heyran edir. Son illərdə Azərbaycanda keçirilən qlobal forumlar, sanballı tədbirlər Azərbaycanın mədəni, iqtisadi inkişafını nümayiş etdirir. Azərbaycanda dünyanın ən iri şirkətlərinin, elm, təhsil ocaqlarının iştirakı ilə sülhə, tərəqqiyə, təhlükəsizliyə və keyfiyyətli inkişafa xidmət edən tədbirlər təşkil edilir. Dünyanın hər yerindən Azərbaycana minlərlə insan gəlir. Azərbaycanı görürlər və Azərbaycan haqqında fikirlərini tamamilə dəyişirlər. Biz uzun müddət informasiya blokadasında qalmışıq, amma bu kimi tədbirlər Azərbaycanı informasiya blokadasından çıxarır. Bu sahədə işimiz daha da güclənməlidir. Ona görə də hər bir belə tədbirdən sonra mətbuatımız da, televiziyamız da daha fəal olmalıdırlar. Azərbaycanda keçirilən hər bir tədbirin arxasında, ilk növbədə Azərbaycanın milli maraqları, Azərbaycanı dünyaya tanıtdırmaq, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq dayanır.

**Səməd Seyidov:** Bir Bakı fenomeni, Azərbaycan fenomeni var. Sözün əsl mənasında, Ziyad müəllim, sizin sözünüzdə böyük həqiqət var və bu fenomenin, unikal bir hadisənin kökündə, əsasında ümummilli liderimiz Heydər Əliyevin fəlsəfəsi dayanır. Azərbaycan artıq öz çərçivəsindən çıxaraq dünya ölkələri içərisində özünəməxsus bir yer tutub. Ona görə gündən-günə forumların artırılması ona dəlalət edir ki, Azərbaycan və onun paytaxtı Bakı bu gün dünyanın əsas mərkəzlərindən birinə çevrilir. Bu gün Azərbaycan iqtidarının, Azərbaycan prezidentinin apardığı siyasət dünyanın iqtisadi diqqətini, dünyanın multikultural diqqətini Azərbaycana gətirir. Artıq forumların sayı, onların əhəmiyyəti, vacibliyi həddindən artıq çoxalıb və vaxt tələb edən bir məsələdir. Bu, müsbət prosesdir və Azərbaycanın bütün dünyada möhkəmlənməsinə, ən əsas probleminin həlli istiqamətində öz təsirini mütləq göstərəcək.

# AXC dövründə ölkənin sosial-iqtisadi vəziyyəti

"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

Müstəqil dövlət atributu kimi, milli pul vahidinin buraxılması Cümhuriyyətin maliyyə siyasətinin mühüm uğuru idi. 1918-ci ilin əvvəlindən Bakıda yeni kağız pullar – "Bakı bonları" buraxıldı (bu zamanadək tədavüldə "Nikolay" pulları və "Kerenski" pul vahidləri işlənib). Milli pul vahidinin möhkəmləndirilməsi, onun alıcılıq qabiliyyətinin qorunub saxlanması ilk vaxtlardan hökumətin iqtisadi siyasətinin əsas məsələsi idi. Çünki milli valyuta inflyasiya şəraitində dövriyyəyə buraxılmışdı.

Hökumət həm əvvəlki dövrdən miras qalan, həm də respublikanın mövcudluğu dövründə baş verən inflyasiyaya qarşı mübarizə aparmalı olurdu. Bu məqsədlə müstəqil dövlətin maliyyə, vergi, bank-kredit sistemi yaradıldı. 1919-cu ilin sentyabrında Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət Bankı açıldı. Maliyyə Nazirliyinin 1919-cu il 20 iyul tarixli qərarı ilə əmtəələrin sərbəst ixracına nail olunması nəzərdə tutulurdu; Parlament xəzinəyə müəyyən rüsum (ixrac olunan xammalın dəyərinin 25 faizi qədər) keçirmək şərti ilə xammal ixracına icazə verilməsinə dair qanun (1919, 11 dekabr) qəbul etdi. Xaricə gizli yolla gümüş, qızıl, platin aparılmasına görə məsuliyyət məsələsinə baxıldı. Eyni zamanda, daxili bazarı tənzimləmək məqsədilə Azərbaycandan kənara göndərilən əmtəələr üçün yeni müvəqqəti gömrük qaydalarının tətbiq edilməsi haqqında qanun qəbul edildi (1920, 9 fevral). Hökumət çevik vergi siyasəti yeridir, dövlət xərclərinin ixtisar edilməsi istiqamətində tədbirlər görürdü.

İstiqlal bəyannaməsində xarici ölkələrlə, xüsusilə yaxın qonşularla iqtisadi əlaqələr yaratmaq və bu əlaqələri genişləndirmək nəzərdə tutulurdu.

Cümhuriyyətin iqtisadi platformasında xarici ölkələrlə iqtisadi əməkdaşlığı asanlaşdırmaq, bu sahədə maneələri aradan qaldırmaq, digər tərəfdən isə bu cür əməkdaşlığı dünya normaları əsasında həyata keçirmək nəzərdə tutulurdu.

Ölkə iqtisadiyyatında inflyasiyanın qarşısını almaq üçün hökumət bir sıra tədbirlər görülməsini nəzərdə tuturdu. Zəruri tədbirlər sırasında əmtəələrin sərbəst ixracına nail olunması da var idi. Xaricdən Azərbaycana gətirilən spirtli içkilərə, balıq məhsullarına gömrük rüsumlarının artırılması haqqında 1919-cu ilin avqust ayında Parlamentin maliyyə-büdcə komissiyasında bəyənilən qanun layihələri də daxili bazarın qorunması və inflyasiyanın qarşısının alınmasına xidmət edirdi.

Xarici iqtisadi ticarət fəaliyyətinin iqtisadiyyatın sağlamlaşdırılması və pul tədavülünün tənzimlənməsində rolu Parlamentin 1919-cu il 24 noyabr tarixli iclasında geniş müzakirə olunmuşdu. Hökumətin iqtisadi platformasında Cümhuriyyətin yaranmasından əvvəl formalaşmış iqtisadi əlaqələri müstəqil dövlətin iqtisadi əlaqələri kimi genişləndirmək məqsədəuyğun sayılırdı. Azərbaycanda fəaliyyət göstərən xarici kapital nümayəndələri ilə münasibətləri yeni əsaslarda inkişaf etdirmək üçün konkret addımlar atılırdı. Məsələn, Azərbaycan hökumətinin 1919-cu il oktyabrın 18-də qəbul etdiyi qərarda Böyükşor gölünün bir hissəsinin Nobel qardaşları birliyinə icarəyə verilməsi haqqında vaxtı bitmiş müqavilənin bərpa olunması göstərilir və bu müqavilənin şərtlərində edilən yeni dəyişikliklər əsaslandırılır.

Hökumət başçısı Nəsib bəy Yusifbəylinin Parlamentin 1919-cu il 22 dekabr tarixli iclasında elan etdiyi bəyannamədə güclü iqtisadiyyatın yaradılması zərurəti Azərbaycanın azad və müstəqil yaşamasının şərti kimi göstərilirdi. Hökumətin xarici ticarət siyasətində köklü dəyişiklik etmək nəzərdə tutulurdu. İndiyədək ticarət siyasətində idxalı artırmaq və ixracı, imkan daxilində, azaltmaq üstünlük təşkil edirdisə və nəticədə, pul qiymətdən düşürdüsə, artıq ixracı stimullaşdırmaq istiqamətində tədbirlərin həyata keçirilməsinin mümkünlüyündən və zəruriliyindən bəhs olunurdu.

Az vaxtda yalnız maliyyə, vergi, bank-kredit sahələri üzrə 82-dən çox qanun layihəsi işlənib hazırlanmış, bir çox qanunlar təsdiq olunmuşdu.

Parlamentdə iqtisadi təmayüllü bir neçə komissiya - maliyyə, büdcə, fəhlə, aqrar, ölkənin məhsuldar qüvvələrindən istifadə komissiyaları yaradılmışdı. Dövlət və hökumət strukturunda olan Əkinçilik, Əmlak, Ərzaq, Dövlət nəzarəti, Maliyyə, Ticarət və Sənaye nazirlikləri, Milli bank, Azərbaycan Xəzinə Palatası, Aksiz palatası, Əmək müfəttişliyi kimi qurumlar dövlətin iqtisadi tənzimləmə fəaliyyətinin həyata keçirilməsində mühüm rol oynayırdılar.

Dövlətin mühüm iqtisadi tənzimləmə aləti mütərəqqi gəlir vergisi hesab olunurdu. Bu vergi müəssisə və təşkilatlarda qazanılan mənfəətin 30%-ni təşkil edirdi. Dolayı vergi kimi şərab, tütün və neft məhsullarına qoyulan aksizlər aktiv iqtisadi tənzimləyici rolunu oynayırdı.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətində sosial yönüm xüsusi diqqət mərkəzində idi. Bu, təsdiq olunan qanunlarda, həyata keçirilən konkret tədbirlərdə özünü göstərirdi.

# "Excelsior Hotel & Spa Baku" oteli yeni xidmət təqdim edib



"Excelsior Hotel & Spa Baku" otelinin "Belveder" restoranı 1 oktyabr tarixindən qonaqlara şam yeməyi açıq bufeti təşkil etməyə başlayıb. Şam yeməyi menyusu hər gün dəyişilir və müxtəlif çeşidlərdən ibarətdir. Bir nəfər üçün 19 manata təklif edilən menyuda yerli və Avropa mətbəxinin yeməkləri təqdim edilir. Menyuya müxtəlif isti yeməklər, sup, suşi, 24 çeşid salat, 14 çeşid desert, meyvə çay, kofe, təbii şirələr daxildir. Oteldə qalan, həmçinin kənardan gələn qonaqlar şam yeməyi açıq bufetin xidmətlərindən istifadə edirlər. Şam yeməyi açıq bufet həftə içi 5 gün saat 19.00-dan 22.00-a qədər qonaqların xidmətində olur.

"Excelsior Hotel & Spa Baku" otelinin satış və marketinq üzrə direktoru İlkin Rüstəmov bildirib ki, otel qonaqların tövsiyələrini daim diqqət mərkəzində saxlayır və öz xidmətlərini daima inkişaf etdirmək üçün mənbə olaraq qəbul edir.

Otelinin qonaqlarının təklifləri əsasında yeni şam yeməyi açıq bufeti xidməti fəaliyyətə başlayıb. Həmçinin, "Belveder" restoranı qonaqlara həftə içi 5 iş günü, saat 12:00-dan 15:00-dək olan müddətdə bir nəfər üçün 14 AZN təşkil edən biznes-nahar açıq bufet xidməti göstərir. Qonaqların otelə rahat gəlib-getməsi üçün 17 nəfərlik mikroavtobus işləyir. "Mercedes" sprinter markalı mikroavtobus səhər saat 08.30-dan 22.00-a qədər qonaqların xidmətindədir. Şənbə və bazar günləri də daxil olmaqla mikroavtobus hər gün səhər 08.30-dan başlayaraq hər saatın yarısında "Excelsior Hotel & Spa Baku" otelinin qarşısından qonaqları Park Bulvara və səhər 09.00-dan başlayaraq hər saatda Park Bulvarın qarşısından "Excelsior Hotel & Spa Baku" otelinə aparır. Xidmət ödənişsizdir, otelin xidmətlərindən istifadə etmək istəyən qonaqların rahatlığı üçün nəzərdə tutulub.

Qeyd edək ki, "Excelsior Hotel & Spa Baku" oteli 2005-ci ilin avqust ayından fəaliyyət göstərir. Excelsior Otel müstəqil Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində yerləşən möhtəşəm 5 ulduzlu oteldir. Otel ənənə və yenilikləri müasir dəbdəbə və qədimilik çalarlarıyla birləşdirir. Otel klassik memarlıqla müasir dizayn elementlərinin vəhdətini təcəssüm etdirir.

# SATIŞIN HƏVƏSLƏNDİRİLMƏSİ FORMALARI VƏ METODLARI

Ticarət şəbəkəsində satışın həcminin artırılmasının ən səmərəli və çox zaman istifadə olunan metodlarından biri satışın stimullaşdırılmasıdır. Satışın stimullaşdırılması dedikdə, qısamüddətli aksiyalar nəzərdə tutulur ki, bunların da məqsədi dərhal və ya müəyyən zaman ərzində (aksiyanın keçirilməsi dövründə) alqının baş verməsinə alıcını sövq etməkdir.

Satışın stimullaşdırılmasının ən geniş yayılmış formalarına aiddir:
Alqının baş verdiyi yerdə reklam:
- *hədiyyələr;*
- *reklam suvenirləri;*
- *nümunələrin qoyulması;*
- *xüsusi təkliflər;*
- *marketinq hadisələri;*
- *oyunlar və müsabiqələr;*
- *birgə reklam;*
- *sərgilər;*
- *sorğu kitabçaları;*
- *ticarətin stimullaşdırılması.*

Alqının baş verdiyi yerlərdə reklama və reklam konstruksiyalarına hər il dünyada 74 milyard dollardan artıq vəsait xərclənir və bu, satışın stimullaşdırılmasının əsas və sürətlə yayılan seqmentlərindən biridir. Belə bir reklam xüsusi olaraq pərakəndə mühit üçün yaradılır, bu zaman alqının 60%-i plandankənar xarakter daşıyır. Son illər bu sferada aparılan tədqiqatların nəticələri göstərir ki, alqının baş verdiyi yerlərdə reklam bir sıra nadir üstünlüklərə malikdir:

- Spontan alqıların motivasiyası. Ən genişmiqyaslı tədqiqatlardan birinin nəticələrinə görə, keçidlərin sonunda və kassaların yanında olan displeylər çox səmərəli sayılır. Reklam konstruksiyalarının təsirinin intensivliyi alıcının yaşından, xüsusi təkliflərə meyilliliyindən və asudə vaxtın mövcud olmasından asılıdır. Tədqiqatda, həmçinin göstərilir ki, daha çox piştaxtalara yaxın alıcıların hərəkətinin stimullaşdırılması ilə impulslu alqılar həyata keçirmək mümkündür.
- Əmtəə və ticarət markası haqqında xatırlatma. Alqının baş verdiyi yerlərdə reklamın funksiyalarından biri sadəcə diqqətsiz qalan əmtəə və əmtəə markalarının müxtəlif kateqoriyalarını istehlakçılara xatırlatmaqdan ibarətdir.



Mağazadakı reklamın icra variantları da getdikcə çoxalır. Əgər əvvəllər bu, başlıca olaraq karton konstruksiyalarından ibarət idisə, hazırda reklam displeyləri əsasən kompüter texnologiyaları əsasında yaradılır.

Ən iri sahə assosiasiyası olan Beynəlxalq reklam təşkilatı və Reklam tədqiqatları fondu hazırda çoxillik tədqiqatlar aparırlar ki, bunun da əsas məqsədi mağazadaxili reklam konstruksiyalarının səmərəliliyini düzgün qiymətləndirməkdir. Tədqiqatların sifarişçilərinin məlumatlarına görə, onun məqsədləri aşağıdakılardan ibarətdir:
- mağazalarda reklam konstruksiyalarının sayının qiymətləndirilməsi. Məlumdur ki, reklamvericilər tərəfindən hazırlanan və yayılan heç də bütün konstruksiyalar, həqiqətən, mağazaların ticarət zallarında quraşdırılmır;
- istehlakçılarla təmasların sayının qiymətləndirilməsi;
- alqının baş verdiyi yerlərdə reklam konstruksiyaları hesabına satışın həcminin artması haqqında informasiya olmalıdır.

Satışın stimullaşdırılması üzrə tədbirlər müxtəlif məqsədlər güdə bilər:
- *yeni əmtəə bazarında irəliləmə və alıcını ilkin alqıya sövq etmə;*
- *alıcıları təkrar və çoxsaylı alqıların baş verməsinə stimullaşdırma;*
- *mağazaya alıcıların yeni seqmentlərinin cəlb edilməsi;*
- *pis dövr edən və qeyri-likvidli əmtəələrin satılması;*
- *alıcıların müntəzəm alqıların baş verməsinə sövq edilməsi;*
- *orta çekin artması;*
- *alıcıların bütünlükdə mağazaya və ya onun ayrı-ayrı şöbələrinə diqqətinin cəlb edilməsi.*

Hazırda satışın stimullaşdırılması üzrə bütün tədbirləri dörd növə bölmək olar:

1. Qiymətin stimullaşdırılması. Qiymətin stimullaşdırılması müəyyən əmtəə qruplarının və ya kateqoriyalarının qiymətlərinin azalması üzrə hərəkətlərdir (aksiyalardır). Qiymətin stimullaşdırılması müxtəlif formalarda çıxış edə bilər.
2. Əmtəənin dəyərindən faizlə qiymət güzəşti. Satışın stimullaşdırılmasının bu metodunu əmtəə qalıqlarından, qeyri-likvidli və pis dövr edən, yararlılıq müddəti bitən əmtəələrdən xilas olmaq və köhnə, qeyri-mövsümi əmtəələrin satışının zəruri olduğu vaxt tətbiq etmək məqsədəuyğundur.
3. Əmtəənin yeni qiymətinin qoyulması. Bu metod xarakteristikasına görə əvvəlki metoda oxşayır və qiymət güzəştləri tətbiq edilən hallarda istifadə olunur. Çox zaman bu iki metoddan birgə istifadə edilir. Lakin yeni qiymətin qoyulması həm də satışın stimullaşdırılmasının müstəqil üsulu kimi də çıxış edə bilər.
4. İkinci və sonrakı alqıya edilən güzəşt. Satışın stimullaşdırılmasının bu metodunun əsas məqsədi alqının ümumi məbləğinin artması və az populyar əmtəələrin satılmasıdır. Bu halda həmin metoddan istifadənin müxtəlif variantları ola bilər. Məsələn, bir əmtəəni alarkən, alıcı ikinci əmtəə üçün 20-30% ölçüdə, üçüncü əmtəə üçün isə 50% ölçüdə güzəşt əldə edir.

**(davamı var)**

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# Rusiyadan Azərbaycana turist axını hər il 30 faiz artır

Rusiyada Azərbaycan üzrə birinci turoperator olan "TOUR A VENT" agentliyi Moskvada ənənəvi illik roud-şouya start verib.

Ölkəmizin turizm potensialının təqdimatı Azərbaycanın Rusiyadakı səfirliyində keçirilib. Moskvanın məşhur turoperatorlarının nümayəndələri üçün Azərbaycanın turizm marşrutlarından, ölkəmizin görməli yerlərindən, milli mətbəximizdən, şəhərlərimizin mədəni xüsusiyyətlərindən və ənənələrindən bəhs edən təqdimat materialları hazırlanıb.

"TOUR A VENT" agentliyinin baş direktoru Alla Arriyetta Kordoves AZƏRTAC-a müsahibəsində bildirib ki, işə bu cür yanaşma həm turistləri cəlb etməyə imkan yaradır, həm də onları Azərbaycanla, onun etnomədəni müxtəlifliyi, bənzərsiz təbiəti və zəngin tarixi irsi ilə daha yaxından tanış olmağa həvəsləndirir. O deyib: "Biz Rusiyanın turoperatorlarına söyləyirik ki, Azərbaycanda istirahət etmək çox maraqlıdır. Azərbaycanın otelləri, regionları, görməli yerləri, mədəniyyəti, tarixi və mətbəxi barədə məlumat veririk. Bu il roud-şou Moskva, Kazan, Novosibirsk və Tümen şəhərlərində keçiriləcək. Kazanda dəfələrlə çıxış etmişik. Bu şəhərin çox səmimi auditoriyası bizi həmişə gözləyir. Orada Azərbaycana çox böyük maraq var. Novosibirskdə və Tümendə hələ olmamışıq, lakin turoperatorların müraciətlərindən görünür ki, onlar bu istiqamətə fəal maraq göstərirlər.




Alla Arriyetta Kordovesin sözlərinə görə, Rusiyadan Azərbaycana turist axını hər il 30 faiz artır.

Agentliyin baş direktoru vurğulayıb: "Rusiyalı turistlər Azərbaycana fəal səfərlər edirlər. Çoxları oraya dəfələrlə gedir. Biz "Azərbaycanın qızıl üzüyü", "Böyük İpək Yolu", qastronomik turlar, şərab turları və başqa tematik turlar təşkil edirik".

Roud-şounun spikerləri qismində Azərbaycanın "Absheron Hotel group", "Chinar Hotel & Spa Naftalan", "Silkway Travel", "Sheraton Baku", "Pullman Baku", "Qalaalti" və başqa iri otellərinin, otel şəbəkələrinin və turizm şirkətlərinin nümayəndələri çıxış ediblər.

# AppLab iştirakçıları üçün blokçeyn texnologiyasına həsr olunmuş seminar keçirilib

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell özünün AppLab inkubasiya proqramının iştirakçıları üçün blokçeyn texnologiyasına həsr olunmuş seminar təşkil edib.

"Gələcəyin texnologiyası: blokçeyn və blokçeyn startapının yaradılması" adlı seminarda yerli startapçılara blokçeyn texnologiyasının iş prinsipləri və onun müxtəlif layihələrə inteqrasiya edilməsi imkanları barədə geniş məlumat verilib.



"Blokçeyn texnologiyası yeni yarananda startapçılar bu yeniliyin hansı sahələrdə tətbiq oluna biləcəyini tam şəkildə başa düşmürdülər. Lakin bu gün blokçeyn üzərində qurulmuş startaplara daha tez-tez rast gəlinir. Biznes sahibi olan gənc startapçılar onun imkanlarını öyrənməlidirlər. Çünki bu texnologiya sayəsində xeyli gəlir əldə etmək mümkündür. Blokçeyn artıq gələcəyin əlçatan texnologiyasıdır və biz onu öyrənib real həyatda tətbiq etməyi bacarmalıyıq", - deyə AppLab proqramının məzunu, müxtəlif uğurlu layihələrin müəllifi, WAVES platformasının səfiri və Blokçeyn üzrə təlimçi Orxan Əhmədov bildirib. AppLab proqramının fəaliyyətə başladığı 2014-cü ildən bəri müxtəlif avadanlıq və proqram təminatlarının tərtibi ilə məşğul olan yerli developerlər öz ideyalarını həyata keçirmək üçün "Bakcell"dən dəstək alırlar. İştirakçılar müvafiq təlimlərlə yanaşı, şirkətin AppLab Mərkəzində təqdim olunan pulsuz İnternet, masa və təlim otaqları ilə yanaşı, üzərində işlədikləri proqram təminatı və cihazların inkişaf etdirilməsi və sınaqlardan keçirilməsi üçün tələb olunan ən son avadanlıqlardan yararlanmaq imkanına malikdirlər.

# Bakcell daha bir iri karyera sərgisində iş müsahibələri keçirib

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell oktyabrın 5-də "Geniş imkanlara kiçik addımlarla" devizi altında Baku City Circuit (BCC) Akademiyası və Azərbaycanda Amerika Ticarət Palatasının ("AmCham") birgə təşkil etdiyi karyera sərgisində aktiv iştirak edib.

BCC Akademiyasında keçirilən tədbirdə 40-a yaxın aparıcı şirkət gənc mütəxəssislərə karyera imkanları və təcrübə proqramları barədə məlumat təqdim edib.

Tədbir zamanı iştirakçılara Bakcell şirkətinin satış və marketinq departamentlərində mövcud olan vakansiya və təcrübə imkanları barədə geniş məlumat verilib.

Şirkət nümayəndələri işaxtaranlar və potensial namizədlərlə müsahibələr keçirib. Tədbirdə quraşdırılmış Bakcell stendi hər zaman olduğu kimi, iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. Ümumiyyətlə, sərgidə Formula 1 Azərbaycan Qran Prisi və digər mühüm tədbirlərdə iştirak etmiş könüllülər daxil olmaqla 900-dan çox tələbə iştirak edib.




Özünün genişmiqyaslı korporativ sosial fəaliyyətinə görə seçilən Bakcell şirkəti Azərbaycan gənclərinin təhsili və peşəkar inkişafını diqqət mərkəzində saxlayır və gənc mütəxəssislərin məşğulluğunun inkişaf etdirilməsinə böyük töhfə verir. Təkcə cari il ərzində şirkət bir sıra iri karyera sərgisində iştirakla yanaşı, özünün ənənəvi yay təcrübə proqramını elan edib və gənclərin karyera və təhsilinə dəstək məqsədini daşıyan digər layihələri uğurla həyata keçirib. Bakcell şirkəti gənclərin təhsil almasına və karyera qurmasına dəstək göstərmək və beləliklə Azərbaycan gənclərinin parlaq gələcəyinə öz töhfəsini verməyə yönəlmiş uğurlu fəaliyyətini davam edəcək.

---

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, general-mayor Həsən Şirinova bacısı

**QƏLƏMZƏR ŞİRİNOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Akademik Ziyad Səmədzadə Aydın Heydərova həyat yoldaşı

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

«MƏTANƏT-A» şirkərinin prezidenti Elxan Başirov Aydın Heydərova həyat yoldaşı

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

Dizayner:
Lamiyə NƏBİYEVA

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**